QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 118 (5590) 26 **iyun** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**


# QÜDRƏTLİ ORDU, GÜCLÜ DÖVLƏT!

***Prezident İlham Əliyev:** “Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir”*



Səh 8

11

Türkiyə xalqı daha uğurlu gələcəyinə səs verdi



14

Erməni hərbçilərin valideynləri Manvel Qriqoryanı lənətləyirlər



16

FIFA Almaniya millisinin iki futbolçusunu cəzalandıracaq?



# "Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq əlaqələrinə əsaslanır"

## *Prezident İlham Əliyev Rusiya Federal Məclisi Dövlət Dumasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu və səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Bu yaxınlarda Rusiya Federasiyasında Prezident Vladimir Putinlə görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev iki ölkənin dövlət başçıları arasında görüşlərin mütəmadi olaraq keçirildiyini qeyd etdi və bu təmasların əlaqələrimizin bütün istiqamətlərdə irəliyə aparılması baxımından önəmini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ikitərəfli münasibətlərimiz geniş sahələri əhatə edir, möhkəm siyasi əlaqələr mövcuddur, iqtisadi, ticarət, nəqliyyat, energetika, humanitar və digər sahələrdə yaxşı dinamika müşahidə olunur. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində parlamentlərarası əməkdaşlıq da böyük önəm daşıyır. Dövlətimizin başçısı qeyd etdi ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edir və hər zaman beynəlxalq səviyyədə bir-birini qarşılıqlı surətdə dəstəkləyir. Bütün bunlar ölkələrimiz arasında etimada əsaslanan əlaqələrin yaxşı göstəricisidir. Prezident İlham Əliyev bir daha Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodin dövlətimizin başçısını prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bildirdi ki, bu seçkilərdə insanlar Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə, o cümlədən xarici siyasətə dəstək verdiklərini nümayiş etdiriblər. Vyaçeslav Volodin vurğuladı ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlər strateji tərəfdaşlıq əlaqələrinə əsaslanır və çox yüksək səviyyədədir. O qeyd etdi ki, dövlət başçılarının həyata keçirdiyi siyasət bu işdə xüsusi rol oynayır. Parlamentlərarası əməkdaşlıq məsələsinə toxunan Vyaçeslav Volodin bildirdi ki, bu sahədə də əlaqələrin uğurla inkişaf etməsi xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Vyaçeslav Volodin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndiyini məmnunluqla vurğuladı və bildirdi ki, ticarət dövriyyəsinin 30 faiz artımı bunun çox yaxşı göstəricisidir. Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri, eyni zamanda, turizm sahəsində əməkdaşlığın genişləndiyini qeyd edərək ötən il Rusiyadan Azərbaycana 850 mindən artıq turistin gəldiyini bildirdi və bu göstəricinin 18 faiz artdığını qeyd etdi. O, bildirdi ki, bu rəqəm Rusiya turistləri üçün ənənəvi olan bir çox ölkələrin göstəricisini artıq geridə qoyub.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# "Azərbaycan və Pakistan hər zaman bir-birini dəstəkləyirlər"

## *Prezident İlham Əliyev Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatı qəbul edib.***



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatın Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmək üçün ölkəmizə gəlməsindən məmnunluğunu ifadə etdi və bunu ölkələrimiz arasında qardaşlıq və tərəfdaşlıq əlaqələrinin göstəricisi kimi dəyərləndirdi. Ölkələrimizin hər zaman bir-birini dəstəklədiyini deyən dövlətimizin başçısı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi səbəbindən Pakistanın Ermənistanla diplomatik əlaqələr qurmamasını yüksək qiymətləndirdi və qeyd etdi ki, bu, xalqlarımız arasında qardaşlığı nümayiş etdirir və Azərbaycan xalqı bunu yüksək dəyərləndirir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev Pakistan rəhbərləri ilə görüşlərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimiz arasında sıx siyasi əlaqələr mövcuddur və eyni zamanda, müdafiə sahəsində də əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Pakistanla hərbi əməkdaşlığı daha da genişləndirmək və Pakistandan daha çox hərbi texnika almaqda maraqlıdır. Ölkələrimizin birgə hərbi təlimləri də bu məqsədə xidmət edir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat Pakistan hökumətinin, xalqının və Silahlı Qüvvələrinin ən xoş arzularını Prezident İlham Əliyevə və xalqımıza çatdırdı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcəyindən məmnunluq hissi keçirdiyini deyən Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat tədbirin böyük əhəmiyyət daşıdığını vurğuladı və bu münasibətlə təbriklərini çatdırdı. Xalqlarımız arasında sıx əlaqələrin mövcud olduğunu deyən Zübair Mahmud Hayat bu əlaqələrin tarixi və mədəni köklərə əsaslandığını vurğuladı. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı seçkilərdə əldə etdiyi inamlı qələbə münasibətilə təbrik edib. Prezident İlham Əliyev qeyd edib ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyə daha da inkişaf edib, iqtisadi sahədə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənib. Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və inkişafı naminə yeni uğurlar arzulayıb.***



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini ifadə ediblər. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanı Azərbaycan Respublikasına rəsmi səfərə dəvət edib. Dəvət minnətdarlıqla qəbul edilib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1099 VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 avqust tarixli 1638 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1097 VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1103 VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1102 VQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1101 VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1096 VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1095 VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

# "Azərbaycanla Belarus arasında ikitərəfli münasibətlər çox yüksək səviyyədədir"

## *Prezident İlham Əliyev Belarus Təhlükəsizlik Şurasının dövlət katibini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zası qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu yaxınlarda Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Moskvada görüşdüyünü məmnunluqla xatırladı və söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldığını dedi. Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu və tərəfdaşlıq əlaqələrinə söykəndiyini vurğulayaraq, əməkdaşlığımızın siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi.

Belarus Respublikasının Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə dövlətimizin başçısını təbrik etdi və bunu xalqın dövlət başçısına verdiyi dəstəyin nümayişi kimi dəyərləndirdi. O, iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevə əlaqələrimizin inkişafına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi.

# Yavər Talıb oğlu Camalov



Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Yavər Talıb oğlu Camalov 2018-ci il iyunun 23-də ömrünün 69-cu ilində vəfat etmişdir.

Yavər Camalov 1949-cu il oktyabr ayının 17-də Sabirabad rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1967-1972-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun neft-mədən fakültəsində neft və qaz yataqlarının işlənməsi texnologiyası və kompleks mexanikləşdirilməsi ixtisası üzrə ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1972-ci ildə "Siyəzənneft" Neft və Qaz Çıxarma İdarəsində operator kimi başlayan Yavər Camalov 1973-1995-ci illərdə "Şirvanneft" Neft və Qaz Çıxarma İdarəsində neft-qaz çıxarma üzrə mühəndis, böyük mühəndis, növbə rəisi, texnologiya üzrə rəis müavini və rəis vəzifələrində çalışmışdır. O, 1995-2003-cü illərdə ARDNŞ-in "Quruda Neft və Qaz Çıxarma" İstehsalat Birliyinin, 2003-2006-cı illərdə isə "Azneft" İstehsalat Birliyinin baş direktoru olmuşdur. 2006-cı ildən ömrünün sonunadək Yavər Camalov Azərbaycan Respublikasının müdafiə sənayesi naziri vəzifəsində işləmişdir.

Yavər Camalov tutduğu vəzifələrdən asılı olmayaraq çalışdığı bütün sahələrdə daim işgüzarlıq, peşəkarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. Yüksək tələbkarlığı, dərin məsuliyyət hissi və dövlətçilik prinsiplərinə sadiqliyi ona böyük hörmət qazandırmışdır. O, uzun illər boyu Azərbaycanın neft sənayesinin inkişafı naminə bilik və bacarığını əsirgəmədən, var gücünü sərf edərək ölkə iqtisadiyyatının yüksəlişinə töhfələr vermişdir.

Azərbaycan Respublikasında müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin uğurla həyata keçirilməsində Yavər Camalovun özünəməxsus xidmətləri vardır. Onun bir nazir kimi rəhbərlik etdiyi dövr ərzində nazirliyin müəssisələrində çox sayda yeni istehsal sahələri yaradılmaqla yanaşı, qurumun müasir tələblərə uyğun səmərəli fəaliyyəti nəticəsində ölkədə hərbi təyinatlı məhsulların çeşidi artmış və keyfiyyəti yüksəlmiş, müdafiə sənayesinin idxaldan asılılığının aradan qaldırılması istiqamətində nailiyyətlər əldə olunmuş və ümumilikdə Azərbaycan Ordusunun müasir silah növləri ilə təmin edilməsi üçün zəruri addımlar atılmışdır.

Yavər Camalovun ölkənin iqtisadi inkişafındakı xidmətləri daim yüksək qiymətləndirilmişdir. O, "Əməkdar mühəndis" fəxri adına layiq görülmüş və müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir. Tanınmış ictimai-siyasi xadim, bacarıqlı təşkilatçı və səmimi insan Yavər Camalovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

İlham Əliyev
Mehriban Əliyeva
Novruz Məmmədov
Oqtay Əsədov
Ramiz Mehdiyev
Hacıbala Abutalıbov
Əli Əsədov
Akif Əlizadə
Zakir Həsənov
Ramil Usubov
Elçin Quliyev
Rövnəq Abdullayev
Xoşbəxt Yusifzadə
Yəhya Musayev
Tofiq Rəfiyev

# Qələbə tariximizi Milli Ordumuz yazacaq

***Azərbaycan Milli Ordusunun yaranma tarixindən bir əsr ötür. Tarixi vərəqlədikcə şərəfli zaman yaşamış ordumuzun keçdiyi yol göz önündə canlanır. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Şərqin ilk demokratik respublikasında ordu quruculuğu istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə təkan verdi. 1918-ci ildə yenicə müstəqilliyini elan etmiş Azərbaycan ilk Milli Ordusunu yaratdı və ilk milli ordu hissələrini formalaşdırmağa başladı. Tarixi mənbələrdə qeyd olunduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti yaradıldığı ilk dövrlərdə onun hərbi qüvvələri 600 nəfərlik könüllü dəstələrdən ibarət idi. Hökumət 1918-ci il iyunun 19-da ölkə ərazisində hərbi vəziyyət elan edib. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə "Vəhşi diviziya" adlanan keçmiş Tatar Süvari Alayının əsgərlərindən formalaşdırılmış və general Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman Korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfər şəxsi heyəti olan "Əlahiddə Azərbaycan Korpusu" yaradılıb. İyulun 11-də hökumət Fərmanı ilə hərbi səfərbərlik elan edilib. Azərbaycan Respublikasının 1894-1899-cu illərdə anadan olmuş bütün müsəlman vətəndaşları orduya hərbi qulluğa çağırılıb.***



Milli kadrlara olan ehtiyacın ödənilməsi üçün hərbi nazirlik 1920-ci ildə Azərbaycanda hərbi təyyarəçilər məktəbi açmağı qərara alıb. Lakin 1920-ci ilin əvvəlindən hərbi şəraitin mürəkkəbləşməsi və aprel işğalı (1920) hərbi-hava qüvvələrinin möhkəmləndirilməsi sahəsindəki işləri yarımçıq qoyur. Təəssüflər olsun ki, 1920-ci ildə Azərbaycan Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra Azərbaycanın Hərbi Nazirliyi rəsmən ləğv edilib, Azərbaycan Ordusunun 21 generallarından 15-i bolşeviklər tərəfindən güllələnib.

1969-cu ilədək Azərbaycanda hərbi kadr hazırlığına Sovet İttifaqı rəhbərliyi qısqanc münasibət bəsləyirdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə milli kadrların hazırlanmasına böyük önəm verildi. 1971-ci ildə böyük səylər nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəb olan Cəmşid Naxçıvanski adına Hərbi Lisey yarandı. Ulu Öndərin bu sahəyə ayırdığı diqqət nəticəsində azərbaycanlı gənclər Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də, SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olundular.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz, bütün sahələrdə olduğu kimi, hərbi sahədə də ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas məsələ Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da, çox çətinliklə həyata keçirilirdi. Ordunun madditexniki təminatı problemlərlə müşayiət edilir, nizami orduya ehtiyac var idi. Azərbaycan xalqının tələbi ilə Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ölkədə ordu quruculuğu prosesinin başlanğıcını qoydu. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, ordudakı siyasiləşməyə son qoyuldu. Ulu Öndər Heydər Əliyev hakimiyyəti dövründə həm Prezident, həm də Ali Baş Komandan olaraq, diqqəti ordunun formalaşmasına və inkişafına yönəltdi. 1993-cü il noyabrın 1-də Müdafiə Şurası yaradıldı. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi olaraq, 1994-cü il mayın 12-də atəşkəsin elan edilməsindən sonra, ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verildi. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Orduya çağırış və fərarilik halları ilə bağlı bütün problemlər həll edildi. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi-vətənpərvərlik işi gücləndirildi. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Məhz Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il Sərəncamına əsasən, 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Azərbaycan Prezidentinin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi-Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Bu gün müasir Azərbaycan Ordusu ən yüksək standartlara cavab verir. Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu siyasətinə sadiq qalaraq, Milli Ordunu regionun ən güclü ordusu səviyyəsinə yüksəldib.

Müasir dövrümüzdə ən yeni silah və sursatla, peşəkar zabit kadrları ilə tam təmin olunmuş Milli Ordumuz işğal olunmuş torpaqlarımızı azad etməyə hazır və qadirdir. Peşəkarlıqla yanaşı, ordunun madditexniki bazası da möhkəmlənib. Bu istiqamətdə son illər ərzində böyük işlər görülüb. Azərbaycan iqtisadiyyatının yüksəlişi, bütün sahələrdə olduğu kimi, ölkənin hərbi qüdrətinin də artmasında müsbət təsirini göstərib. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun hesabatına görə, 2012-ci ildə dünyada hərbi büdcəsini ən çox artıran ölkə Azərbaycan olub. 2018-ci ilin dövlət büdcəsində müdafiə xərcləri üçün 2,739 milyard manat və ya 1,611 milyard ABŞ dollarının ayrılıb. Azərbaycanın müdafiə məqsədləri xərcləri Ermənistanla müqayisədə təxminən 3 dəfə artıqdır. Son bir neçə il ərzində Azərbaycanda müasir və çox güclü Hərbi-Sənaye Kompleksi yaradılıb. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib və bunun nəticəsi olaraq, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik ordumuz var.

Bu gün torpaqlarının 20 faizi işğalda olan Azərbaycan üçün ordu quruculuğu, ordunun daha da möhkəmlənməsi zəruridir. Bəli, belə bir şəraitdə ordunun güclənməsi üçün bütün lazımi tədbirlər görülür və peşəkarlıq artır. Azərbaycan Prezidentinin hərbi qulluqçuların aylıq vəzifə maaşlarının artırılması, hərbi qulluqçuların təltif edilməsi, hərbi qulluqçulara ali hərbi rütbələrin verilməsi barədə imzaladığı sərəncamlar silahlı qüvvələrin şəxsi heyətini daha qətiyyətli, Vətənin müdafiəsi işində daha əzmkar və ayıqsayıq olmağa ruhlandırır. Hərbçilərin sosial məsələlərinin və məişət problemlərinin həlli həmişə diqqət mərkəzində saxlanılır.

Millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Milli Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalığda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın silahlı qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.

Bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və heç şübhəsiz ki, belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləməyə və üçrəngli bayrağımızı Qarabağda dalğalandırmağa qadirdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində, gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Dövlətimizin diqqət və qayğısını, xalqın dayağını daim öz üzərində hiss edən hərbçilərimizin isə döyüş ruhu birə-beş artır. Vətən övladları sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar. Günün müxtəlif vaxtlarında Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən, mütəmadi olaraq, atəşkəs rejimi pozulsa da, əsgər və zabitlərimizin ayıq-sayıqlığı nəticəsində düşmən susdurulur, kəşfiyyat-təxribat qruplarının qarşısı vaxtında alınır.

Erməni ordusunun təxribat xarakterli hücumlarına layiqli cavab verən Azərbaycan Ordusu yüksək hazırlıqlı peşəkar zabit və əsgərlərin xidmətini bir daha dünya ictimaiyyəti qarşısında canlandırır. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq, Azərbaycan və Ermənistan silahlı qüvvələrinin Qondarma Dağlıq-Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş aprel döyüşləri Azərbaycan Ordusunun gücünü göstərmiş oldu. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələndi və Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olundu. Bu yaxınlarda isə 26 il işğal altında olan Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklərin Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilməsi ordumuzun növbəti uğuru oldu. Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi, Dərələyəz mahalının Arpa kəndində (ermənilər adını dəyişdirərək "Areni" qoyublar) və Mehridərə vadisində düşmən fəaliyyəti nəzarət altına götürüldü. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun hərbi birləşmələrinin döyüşçüləri çox böyük qəhrəmanlıqla üç gün davam edən əməliyyatlar nəticəsində 11 min hektar ərazini ermənilərdən azad etdi.

Təsadüfi deyil ki, 2017-ci ildə "Global Firepower" təşkilatının yekunlarına əsasən, Azərbaycan Silahlı Qüvvələri "Dünyanın ən güclü ordusu" reytinqində 58-ci yerdə qərarlaşıb. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi uğurla davam etdirilir və ordumuz daha da inkişaf edir və təkmilləşir. Belə bir gücə malik ordu işğal olunmuş ərazilərimizi düşməndən azad etmək və ölkəmizin ərazi bütövlüyünü qorumaq gücündədir.

Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "Bizim ordumuz güclü ordular sırasındadır. Son illər ərzində ordumuzun maddi-texniki təminatı böyük dərəcədə inkişaf edib. Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Biz son illər ərzində bir çox ölkələrdən ən müasir texnika, silah-sursat almışıq ki, bu texnika və silahlar bu gün bizim ordu potensialımızı gücləndirir".

Bəli, Milli Ordumuz belə bir gücə malikdir. Səmada Azərbaycan şahinlərin şücaətini, sərhədlərimizin keşiyində duran ər oğulların düşmənə vurduğu ağır zərbəni gördükcə, hər bir azərbaycanlının qəlbi fərəhlə döyünür. Bu, Azərbaycan Ordusunun döyüş ruhu, əzmi və qələbə sorağıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Zakir Həsənov: "Azərbaycan Ordusunun şəxsi heyəti 100 illik yubileyini ruh yüksəkliyi ilə qeyd edir"

***Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileyi münasibətilə şəxsi heyəti təbrik edib.***

AZƏRTAC xəbər verir ki, şəxsi heyətə Vətən naminə şərəfli xidmətdə uğurlar arzulayan nazir qeyd edib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun yüksəldilməsinə müsbət təsir göstərdi. Azərbaycan Ordusunun şəxsi heyəti 100 illik yubileyini ruh yüksəkliyi, həmçinin qazandığı böyük nailiyyətlərlə qeyd edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin uğurla gerçəkləşdirdiyi siyasət digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də əldə olunan möhtəşəm uğurlarla Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Ali Baş Komandanımız qeyd etdiyi kimi, biz güclü ordu yaratmışıq. Ordu-



muzun maddi-texniki təchizatı və döyüş qabiliyyəti ən yüksək səviyyədə olduğunu döyüş meydanında sübut edə bilmişik".

Son illərdə Azərbaycan Ordusunun hərbi qüdrətinin artdığını və keçirdiyi uğurlu əməliyyatları qeyd edən nazir bildirib: "2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və cari ilin mayında Naxçıvanda Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları nəticəsində torpaqlarımızın bir hissəsi düşmən işğalından azad edildi. Artıq həmin torpaqlara Azərbaycan vətəndaşları qayıdıblar. O torpaqlara həyat qayıdıb və bunu Azərbaycan dövləti, Azərbaycan Ordusu edib.

Keçirilən genişmiqyaslı taktiki təlimlərdə şəxsi heyət öz peşəkarlığını, yüksək döyüş qabiliyyətini nümayiş etdirir, Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir. Xalq öz ordusuna inanır, gücünə güvənir. Şəhid ailələri, müharibə veteranları və əlilləri, eləcə də hər bir hərbi qulluqçu ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunub. İnanıram ki, bu sizin məsuliyyətinizi daha da artırır".

Bu əziz gündə şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edərək onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlıqlarını itirən döyüşçülərimizi, veteranları bayram münasibətilə təbrik edən nazir vurğulayıb: "Əminliklə bildirirəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti bundan xalqımızın və dövlətimizin etimadını sonra da şərəflə doğruldacaq, hərbi intizamı gücləndirəcək, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldəcək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etməyə hazır olacaq".

# "Gənclər arasında narkomanlığa qarşı mübarizənin gücləndirilməsi" mövzusunda konfrans keçirilib

***Dünən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə 26 iyun - narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə beynəlxalq mübarizə günü ilə əlaqədar "Gənclər arasında narkomanlığa qarşı mübarizənin gücləndirilməsi" mövzusunda konfrans keçirilib. Tədbir Azərbaycan Prezidentinin 2013-cü il 24 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinin icrasını təmin etmək məqsədi daşıyır.***




Tədbirdə Azərbaycan Respublikasının Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov, gənclər və idman naziri Azad Rəhimov, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin Baş redaktoru, "Narkomanlığa qarşı mübarizə" mövzusunda gənc jurnalistlər arasında keçirilmiş ən yaxşı müəllif yazıları müsabiqəsinin münsiflər heyətinin sədri Vüqar Rəhimzadə, Milli Məclisin deputatı Şahin İsmayılov və başqaları çıxış edərək, Azərbaycanda narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində görülən işlərdən, müsabiqənin əhəmiyyətindən danışıblar. Ölkədə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə dövlət səviyyəsində yetirilən diqqət, bu sahədə həyata keçirilən tədbirlər haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, "Narkomanlığa qarşı mübarizə" mövzusunda jurnalistlər arasında keçirilmiş müəllif yazıları müsabiqənin məqsədi KİV-lərdə sağlam həyat tərzinin təbliğ olunması və bununla ictimaiyyətin, xüsusilə, gənclərin məlumatlılığının artırılması, bu istiqamətdə mətbuatda dərc olunan materialların sayının artırılmasının stimullaşdırılması və gənc jurnalistlərin yaradıcılıq qabiliyyətlərinin nümayiş olunmasına şərait yaradılmasıdır. Sonda "Narkomanlığa qarşı mübarizə" mövzusunda gənc jurnalistlər arasında keçirilmiş ən yaxşı müəllif yazıları müsabiqəsinin qalibləri mükafatlandırılıblar. Mükafatlandırılanlar arasında "Səs" media qrupunun əməkdaşı da var.

***GÜLYANƏ***

# BƏƏ-nin mobil operatorunun qanunsuz fəaliyyət göstərən "Karabakh Telecom" ilə rominq razılaşması ləğv edilib

Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi tərəfindən görülmüş tədbirlər nəticəsində bu ölkənin mobil operatoru olan "Etisalat"ın Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərən "Karabakh Telecom" ilə rominq razılaşması ləğv edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib. H.Hacıyev deyib ki, Ermənistan Beynəlxalq Telekommunikasiya İttifaqının təlimat və qaydalarına zidd olaraq, onun üçün ayrılmış "+374" beynəlxalq kodunu Azərbaycanın işğal olunmuş ərazilərinə də şamil edir və bununla Azərbaycanın radio-telekommunikasiya məkanına, radio tezliklərinə qanunsuz müdaxilə edir. Həmçinin Beynəlxalq Telekommunikasiya İttifaqı ölkələr üzrə mobil kodlar (MCC) və mobil şəbəkə kodlarının (MNC) ayrılmasına məsul olduğu halda, "Karabakh Telecom" BTİ-nin E.212 saylı təlimatını pozaraq, "283" ölkə üzrə mobil kodunu və "04" mobil şəbəkə kodunu Azərbaycanın işğal olunmuş ərazilərində tətbiq edir. Hazırda Ermənistanda aparılan korrupsiya tərkibli cinayət işlərində "Karabakh Telecom" şirkətinin də adı hallanır. Beynəlxalq hüququn norma və prinsiplərini, Beynəlxalq Telekommunikasiya İttifaqının təlimat və qaydalarını, həmçinin korporativ biznes etikası qaydalarını əsas tutaraq, ölkəmizin işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərən "Karabakh Telecom" şirkətinin digər beynəlxalq mobil operatorlarla rominq əməkdaşlığı bundan sonra da dayandırılacaq.

# DSX-nin rəisi Elçin Quliyev Ukrayna DSX-nin rəisi Petro Siqikalı qəbul edib







***2018-ci ilin iyun ayının 24-də Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin dəvəti ilə Ukraynanın Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Petro Siqikalın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfər edib.***

Nümayəndə heyəti, ilk olaraq, Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın məzarları önünə əklil və tər güllər düzərək, onların ruhuna hörmət və ehtiramlarını bildirib, daha sonra Şəhidlər Xiyabanını ziyarət edərək, Azərbaycanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad ediblər.

Görüş zamanı ikitərəfli münasibətlərin mövcud vəziyyəti nəzərdən keçirilib və yüksələn xətlə inkişaf etdiyi, xüsusilə vurğulanıb, gələcək inkişaf perspektivləri, habelə Azərbaycan-Ukrayna arasında beynəlxalq terrorçuluq, qeyri-qanuni miqrasiya, narkotiklərin qeyri-leqal dövriyyəsi, SMBK, BMT, Aİ, FRONTEX, GUAM təşkilatları çərçivəsində əməkdşlığın davam etdirilməsi kimi məsələlər müzakirə edilib.

Bununla yanaşı, görüşdə Azərbaycan Respublikasının dövlət sərhədindəki əməliyyat şəraiti və mövcud təhdidlər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20%-nin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, işğal olunmuş ərazilərin transsərhəd cinayətkar fəaliyyətlər üçün istifadə edildiyi, mövcud vəziyyətin sərhəd təhlükəsizliyi üçün əsas təhdid olduğu vurğulanıb, həmçinin DSX-da həyata keçirilən islahatlar, sərhəd-mühafizə sisteminin gücləndirilməsi, müasir təlim-tədris sisteminin yaradılması istiqamətində həyata keçirilib, tədbirlər və əldə olunmuş nailiyyətlər barəsində qonaqlara ətraflı məlumat verilib.

Ukrayna nümayədə heyəti səfər zamanı Dövlət Sərhəd Xidməti Aparatının struktur bölmələri, Sahil Mühafizəsi, DSX Akademiyası, "Sərhədçi" İdman Olimpiya Mərkəzi, Xüsusi Məktəb və digər bölmələrin fəaliyyəti ilə tanış edilib.

İkitərəfli əməkdaşlığın normativ-hüquqi bazasının inkişaf etdirilməsi məqsədilə nümayəndə heyətlərinin rəhbərləri tərəfindən "AR Dövlət Sərhəd Xidməti ilə Ukrayna Dövlət Sərhəd Xidməti arasında 2019-2020-ci illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi Planı" imzalanıb.

***Afət TAHİRQIZI***

## Vüqar Rəhimzadə: "Türk xalqı daha parlaq gələcəyinə səs verdi"



"Ötən gün Türkiyə Respublikasının tarixində kifayət qədər mühüm hadisə baş verdi. Qardaş ölkədə keçirilən növbədənkənar prezident və 27-ci çağırış parlament seçkilərinə dair səsvermənin nəticələrinə görə Rəcəb Tayyib Ərdoğan yenidən prezident seçildi və onun sədri olduğu Ədalət və İnkişaf Partiyası seçicilərin etimadını qazandı. Beləliklə seçicilər səs çoxluğu ilə prezidentliyə namizəd Rəcəb Tayyib Ərdoğana etimad göstərdilər. Bununla da, qardaş türk xalqı öz tarixi seçimini edərək güclü Türkiyənin daha parlaq gələcəyini təmin etdi." Bu fikirləri KİV-ə açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə onu da qeyd edib ki, bu gün Türkiyə regionda və dünya miqyasında mühüm əhəmiyyətə malik dövlətdir: "Türkiyə Respublikası kifayət qədər mürəkkəb geosiyasi coğrafiyada yerləşir. Xüsusilə, Yaxış Şərqdə baş verən hadisələr bunu deməyə əsas verir. Xüsusi olaraq, vurğulamaq lazımdır ki, bu region böyük "güclərin" maraqlarının toqquşduğu ən qaynar nöqtələrdən biridir. Etiraf etmək lazımdır ki, bu qüvvələrə də güclü Türkiyənin varlığı sərf etmir. Onlar hər vasitə ilə qardaş ölkəni münaqişələrin mərkəzinə çəkməyə, dolayısı ilə onu zəiflətməyə çalışırlar. Ancaq unudurlar ki, bu, mümkün deyil. Güclü, qüdrətli Türkiyə hər zaman var olub və olacaq. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə dövlət müstəqilliyini daha da möhkəmləndirəcək, böyük zəfərlər qazanacaq."

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Türkiyə sürətlə inkişaf edərək dünya "nəhəngləri" sırasına daxil olmaqdadır: "Bu gün dünyanın böyük dövlətləri-ABŞ və Rusiya Türkiyəni öz strateji tərəfdaşları hesab edir və onunla hesablaşırlar. Bu ölkələr qəbul etdikləri bir çox qərarlarda Türkiyənin maraqlarına xüsusi diqqət yetirirlər. Bu, bir daha onu göstərir ki, qardaş Türkiyə dünyada sayılıb-seçilən, söz sahibi olan ölkələrdən biridir. Təbii ki, bu uğurların təməlində güclü iradə, möhkəm birlik, demokratiya və digər mühüm məqamlar dayanır."

Vüqar Rəhimzadə əlavə edib ki, Rəcəb Tayyib Ərdoğanın növbəti dəfə Prezident seçilməsi Azərbaycan-Türkiyə dostluq və qardaşlığını, strateji münasibətlərini daha da möhkəmləndirəcək, gələcək üçün yeni perspektivlər yaradacaq: "Bu gün Azərbaycan-Türkiyə birliyi dünyada nümunə göstərilir. Bu birlik tarixi köklərə, milli, dini birliyə, dostluğa, qardaşlığa əsaslanır. Bu birlik möhkəm təməllər üzərində qurulub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millər, iki dövlət", türk xalqının Ulu Öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" dəyərli kəlamları Azərbaycan-Türkiyə münasibətlərinin nə qədər yüksək səviyyədə olduğunun əyani sübutudur."

V.Rəhimzadə onu da bildirib ki, Möhtərəm Prezidentimiz İlham Əliyev və qardaş Türkiyənin Prezidenti Cənab Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradələri, qətiyyətləri sayəsində Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı yüksələn xətlə inkişaf edəcək: "Bu gün dünya Azərbaycan və Türkiyənin birgə imza atdıqları qlobal layihələrdən danışır. Dünyanın enerji tarixində mühüm yer tutan "Əsrin müqaviləsi"nin məhsulu olan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum əsas ixrac neft və qaz kəmərlərinin tikilib istismara verilməsi, XXI əsrin layihəsi adlandırılan "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsi nəticəsində istifadəyə verilən TANAP, tikintisi davam etdirilən TAP Azərbaycan və Türkiyə birgə səyləri, qətiyyəti sayəsində reallığa çevrilib. Güclü Türkiyə güclü Azərbaycan, güclü Azərbaycan isə güclü Türkiyə deməkdir. Bizim gücümüz birliyimizdədir."

## Rusiya Federal Məclisi Dövlət Dumasının sədri Heydər Əliyev Mərkəzində olub



Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyəti iyunun 25-də Heydər Əliyev Mərkəzində olub. AZƏRTAC xəbər verir ki, qonaqlara Heydər Əliyev Mərkəzinin binası haqqında və Mərkəzin fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin zəngin irsinin dərindən öyrənilməsinə və təbliğinə yönəlib. Bundan əlavə, Heydər Əliyev Mərkəzinin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə populyarlaşdırılmasına və təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət göstərir.

Mərkəzdəki Heydər Əliyev Muzeyi qonaqların böyük marağına səbəb olub.

Muzeyin "Azərbaycanın ictimai-siyasi həyatı", "Dövlətçilik, irs və nailiyyətlər", "Fotolarda əks olunmuş həyat" bölmələrində Ulu Öndərin həm sovet dövründə, həm də müstəqillik illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual formada təqdim edilir.

Nümayəndə heyəti Mərkəzin "Azərbaycan inciləri" sərgisi ilə tanış olub. Qeyd edilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətlərinə, çoxəsrlik tarixinə, mədəni irsinə dair nadir eksponatlar nümayiş olunur. Sərgidə qədim sənətlərin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri yer alıb, mis məmulatlar xüsusi maraq doğurur. Azərbaycanın qədim musiqi alətləri orijinal formada - səsli təqdim olunur. Milli geyimlərimizin, qədim sikkələrimizin nümayiş etdirildiyi ekspozisiyada müxtəlif dillərdə müqəddəs kitablar da təqdim olunur.

Qonaqlar, həmçinin Bakıda və regionlardakı tarixi memarlıq abidələrinin maketlərini əks etdirən "Mini Azərbaycan" sərgisinə baxıblar.

Nümayəndə heyətinin üzvləri "Heydər Əliyev. Şəxsiyyət, missiya, irs" Rusiya-Azərbaycan tarixi sənədli sərgisi ilə də tanış oldular. Vyaçeslav Volodin Mərkəzin xatirə kitabına ürək sözlərini yazıb.

## Sudeyif İmamverdiyev "Azərbaycanın Qüruru" Qızıl Ordeninə layiq görülüb



Bakıda keçirilən Azərbaycan Uroloq və Androloqlarının XII konqresində dünyanın müxtəlif ölkələrindən mütəxəssislər iştirak ediblər. Tədbirdə urologiya və andrologiya sahəsində son elmi nailiyyətlər, tibbi araşdırmalar təqdim olunub. Konqres AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor, Əməkdar Elm Xadimi Sudeyif İmamverdiyevin 80 illik yubileyinə həsr olunub.

AZƏRTAC xəbər verir ki, konqresi giriş sözü ilə açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Avropa Uroloqlar Assosiasiyasının həqiqi üzvü olan fitri istedada malik cərrah-həkimin nefroptozun, prostat vəzinin xoşxassəli hiperplaziyasının cərrahi müalicəsində, andrologiya sahəsində yeni əməliyyatların tətbiqində qazandığı uğurlardan, görkəmli uroloqun keçdiyi həyat yolundan, tibbin bu sahəsində tətbiq etdiyi yeniliklərdən danışıb. Qeyd olunub ki, professor Sudeyif İmamverdiyev 2011-ci ildən Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvüdür, Azərbaycan Andrologiya və Reproduktiv Təbabət Assosiasiyasının fəxri sədri, Uroloqlar Assosiasiyasının rəhbəri, Respublika Ağsaqqallar Şurasının sədr müavinidir. Bildirilib ki, S.İmamverdiyev 56 ildir ki, uroloq-cərrah kimi xalqımızın sağlamlığı keşiyində dayanıb. Yarım əsrdən artıqdır ki, həm də elmi-pedaqoji fəaliyyətlə məşğuldur. Professor Sudeyif İmamverdiyevin rəhbərliyi ilə indiyədək 20 namizədlik, 5 doktorluq dissertasiyası müdafiə edilib. Görkəmli uroloq 13 ixtira və səmərələşdirici təklifin, 4 dərslik, 10 monoqrafiya, 5 metodik və 6 dərs vəsaitinin müəllifidir. Ölkəmizdə uro-onkologiyada yeni istiqamət olan limfoqrafiya müayinəsinin ilk dəfə aparılması onun adı ilə bağlıdır. Professor ötən əsrin 70-ci illərindən başlayaraq böyrəklərin mərcanvarı və çoxlu daşları olan xəstələrin müalicəsində, habelə uro-ginekologiya sahəsində tətbiq olunan bir sıra təklif və yeni müalicə metodlarının müəllifi kimi də tanınır.

Bakı şəhər Səhiyyə İdarəsinin rəisi Elmira Əliyeva, Türk Uroloji Dərnəyinin sədri, professor Alteş Kadıoğlu, 1 nömrəli Respublika Klinik Xəstəxanasının baş həkimi Telman İbadov və başqaları çıxış edərək həkim-cərrahı təbrik ediblər. Tanınmış cərrah-uroloq Tük Uroloji Dərnəyinə fəxri üzv qəbul olunub.

Tədbirdə çıxış edən "Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru Emil Nəsirli yubilyarı təbrik edib, jurnalın Redaksiya Şurasının qərarı ilə Azərbaycanda elm, təhsil, səhiyyə sahələrinin inkişafına mühüm töhfələr təşkil edən əsərlərə, fundamental və tətbiqi elmi araşdırmalara, səhiyyə elminə verdiyi dəyərli töhfələrə və dövlətçiliyin inkişafında müstəsna xidmətlərinə görə Sudeyif Bəşir oğlu İmamverdiyevə "Azərbaycanım" beynəlxalq jurnalının təsis etdiyi "Azərbaycanın Qüruru" Qızıl Ordenini təqdim edib.

Professor Sudeyif İmamverdiyev əməyinə verilən yüksək qiymətə görə ölkə rəhbərliyinə, onun zəhmətini yüksək qiymətləndirən həmkarlarına, "Azərbaycanım" beynəlxalq jurnalının kollektivinə və konqres iştirakçılarına təşəkkürünü bildirib. Sonra görkəmli uroloqun həyat yolundan bəhs edən "İnsanlığın sağlamlığında duran ömür" filmi nümayiş olunub. Konqresdə iştirak edən elm adamları, xarici ölkələri təmsil edən ziyalılar və başqaları ayrı-ayrı uroloji problemlər, onların sağaldılması yolları, cərrahi əməliyyatlarda tətbiq edilən ən müasir üsullar barədə məruzələrlə çıxış ediblər.

## Bəhruz Quliyev: "Türkiyə xalqı Ərdoğan siyasətinin uğurlu davamına səs verdi"



Rəcəb Tayyib Ərdoğanın və partiyasının qələbəsi Türkiyənin istər regionda, istərsə də beynəlxalq aləmdə apardığı çoxşaxəli və uğurlu siyasətin davam etdiriləcəyindən xəbər verir. Bunu Trend-ə siyasi ekspert Bəhruz Quliyev ötən gün qardaş ölkədə keçirilən seçkilərin nəticələrinə münasibət bildirərkən deyib. Ekspertin sözlərinə görə, R.T.Ərdoğanın və Ədalət və İnkişaf Partiyasının (AKP) qələbəsi əslində gözlənilən idi və bu, ilk növbədə, Türkiyə xalqının seçim iradəsinin məntiqi nəticəsi kimi qiymətləndirilə bilər:

"Ona görə də seçkilərin real nəticələrini kifayət qədər təbii qarşılamaq lazımdır. Artıq qardaş ölkənin bütün bölgələrində əldə edilən qələbə milyonlarla insan tərəfindən qeyd olunmaqdadır. Türkiyə xalqı ölkənin dövlətçilik maraqlarının möhkəmləndirilməsinə, bunun davamlı olmasına səs verdi. Çünki Rəcəb Tayyib Ərdoğan tərəfindən illər öncə başladılmış elə qlobal işlər var ki, onların hər birindən nəticə almaq lazımdır. Seçicilərin nəhəng qismi bunu anlayır və dərk edirdi, ona görə də bu seçkilərdə qətiyyətini ortaya qoyaraq səsini AKP-yə və Ərdoğana verdi". Türkiyə ilə Azərbaycan arasında münasibətlərə də toxunan B.Quliyev bildirib ki, bu münasibətlər hər zaman yüksək səviyyədə olub: "Əlbəttə ki, Ərdoğanın qələbəsi mövcud münasibətlərin inkişafına, tərəqqisinə və daha yüksək səviyyəyə qədər təkmilləşməsinə münbit zəmin yaradır. Çünki istər iqtisadi, istər hərbi, istər təhlükəsizlik, istərsə də digər faktorlar baxımından iki qardaş dövlətin münasibətləri hər zaman isti olub. Hətta deyərdim ki, müxtəlif layihələr kontekstindən yanaşsaq, Türkiyəni Azərbaycansız, Azərbaycanı isə Türkiyəsiz təsəvvür etmək mümkün deyil. Bu münasibətlər digər bir çox dövlətlərə nümunə ola bilər. Ümumiyyətlə, Türkiyə dövləti bu seçkilərdən sonra istər daxili, istərsə də xarici siyasətində qlobal miqyasda siyasi-iqtisadi proseslərə təsir etmək imkanını daha da artıracaq. Söz yox ki, qardaş ölkənin uğurları Azərbaycandan da təsirsiz ötüşməyəcək. Belə ki, regionda bir-birini tamamlayan müştərək siyasətdə əldə edilən hər bir nailiyyət iki qardaş dövlət üçün səmərələr verməkdə davam edəcək. Bu baxımdan Türkiyədə keçirilmiş seçkilərin nəticələri və hakim partiyanın, eləcə də Rəcəb Tayyib Ərdoğanın qələbəsi yaxın gələcəkdə daha böyük uğurların əldə edilməsinə açılan yeni, mütərəqqi bir yoldur".

# “The Jerusalem Post”: Transanadolu qaz kəməri (TANAP) Azərbaycanın qaz ehtiyatlarını Avropaya nəql edəcək

***2018-ci il iyunun 12-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev Əskişəhər şəhərində Transanadolu qaz kəməri (TANAP) layihəsinin açılış mərasimində iştirak ediblər. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayacaq bu layihənin açılış mərasimində Serbiya Prezidenti Aleksandr Vuçiç, Ukrayna Prezidenti Pyotr Poroşenko, Şimali Kipr Türk Respublikasının Prezidenti Mustafa Akıncı, tərəfdaş ölkələrin dövlət başçıları, nazirlər, energetika şirkətlərinin rəhbərləri, digər yüksək vəzifəli məmurlar da iştirak ediblər.***

AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qutun İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş “Transanadolu qaz kəməri (TANAP) Azərbaycanın qaz ehtiyatlarını Avropaya nəql edəcək” sərlövhəli məqaləsi bu barədədir https://www.jpost.com/Blogs/News-from-Arye-Gut/Trans-Anatolian-gas-pipeline-TANAP-will-bring-Azerbaijan-gas-resources-to-Europe-560036.

Məqalə müəllifinin sözlərinə görə, Türkiyə və Azərbaycan TANAP layihəsi çərçivəsində enerji sektorunda əvvəlki layihələrin uğurlarını daha da genişləndirəcəklər. Arye Qut yazır: “TANAP layihəsi dünya enerji bazarlarında qardaş Türkiyə və Azərbaycanın yerini müəyyən edəcək. Bu layihə Avropanın və Türkiyənin təbii qaza tələbatını təmin etmək üçün, habelə qaz məhsullarının müxtəlif çeşidini təmin etmək üçün nəzərdə tutulur.

Bu layihə Türkiyə ilə Azərbaycan arasında sıx dostluğun nəticəsidir. Tranzit ölkələr də mühüm rol oynayıblar. Bu layihə sayəsində ilk dəfə olaraq Azərbaycan qazı Avropaya çatdırılacaq. Prezident Ərdoğan daha sonra əlavə edib ki, Türkiyə, Azərbaycan və Gürcüstan arasında sıx əməkdaşlıq bundan əvvəl Bakı-Tbilisi-Ceyhan strateji neft kəmərinin çəkilişinə gətirib çıxarıb.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: “TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.

Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl - 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışını qeyd etdik. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin açılışını birlikdə etdik. Keçən il Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu, onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır”.

Qut vurğulayır ki, TANAP layihəsi




həm enerji təhlükəsizliyinin təmin edilməsi, həm də boru kəmərinin keçdiyi ölkələrdə maddi rifahın yaxşılaşdırılması üçün vacibdir. İsrailli ekspert yazır: “Bu layihə Amerika Birləşmiş Ştatlarının və Avropa İttifaqının dəstəyi sayəsində regionda sülh və sabitlik işinə böyük töhfə verəcək. TANAP Cənub Qaz Dəhlizinin (SGC) mərkəzi və ən uzun hissəsidir. SGC-nin əsas məqsədi Azərbaycanın nəhəng Şahdəniz yatağını Cənubi Qafqaz boru kəməri (SCP), TANAP və Transadriatik boru kəməri (TAP) vasitəsilə Avropa ilə əlaqələndirməkdir. SCP Gürcüstan vasitəsilə Azərbaycandan Türkiyəyə keçir. TAP Yunanıstanda başlanır, sonra Albaniya və Adriatik dənizindən İtaliyaya çatır. 8,5 milyard dollar sərmayə qoyulmuş TANAP hər il Azərbaycandan Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr qaz nəql edəcək. Gözlənildiyinə görə, layihənin Avropa hissəsi artıq 2020-ci ildə fəaliyyətə başlayacaq”.

Məqalə müəllifi qeyd edir ki, hazırda TANAP layihəsinin dörd tərəfdaşı var. TANAP-ın səhmlərinin 58 faizi Cənub Qaz Dəhlizinə (SGC), 30 faizi Türkiyənin BOTAŞ neft-boru korporasiyasına, 12 faizi isə BP-yə məxsusdur. Bu yaxınlarda SGC səhmlərinin yeddi faizi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyə filialına verilib.

Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş məqaləsində yazır: “Bu proqramın həyata keçirilməsi Avropa İttifaqının enerji təhlükəsizliyinin artırılması və “Qazprom” məhsullarından asılılığın azaldılması siyasətinin tərkib hissəsidir, layihə özü isə daha böyük ambisiyalı Nabucco qaz kəməri layihəsindən ayrılıb. TANAP kəməri Yunanıstandan Albaniyaya, daha sonra sualtı marşrutla İtaliyaya çatdırılmaq üçün 878 kilometrlik Trans Adriatic Pipeline (TAP) kəmərinə qoşulduqda bu boru kəmərləri üçlüyü TurkStream çəngəlini təşkil edəcək. 2019-cu ilin sonunda TurkStream qazı Qara Dəniz marşrutları vasitəsilə Türkiyəyə və Bolqarıstana çatdırılacaq. Məqsəd Varnadakı Bolqarıstan qaz qovşağına daxil olan TurkStream qazını Cənubi və Mərkəzi Avropa bazarlarına çatdırmaqdır.

Qutun fikrincə, Azərbaycan Cənubi Qafqaz regionunda əməkdaşlığın mütərəqqi ikitərəfli formatlarının təşəbbüsçüsü və ya yaradıcısı kimi çıxış edən yeganə ölkədir. Azərbaycan ikitərəfli əməkdaşlıq əsasında üçtərəfli və hətta dördtərəfli formatlar üçün yol açıb.

Arye Qut vurğulayır: “Azərbaycan çox əlverişli, lakin geosiyasi baxımdan mürəkkəb və qeyri-sabit regionda yerləşir. Azərbaycan xarici ölkələrlə etimada əsaslanan konstruktiv münasibətlər qurub və inkişaf etdirib. Bu gün Azərbaycan beynəlxalq aləmdə mühüm yer tutur, Cənubi Qafqaz regionunun geosiyasi və geoiqtisadi lideri kimi öz mövqeyini saxlayır və möhkəmləndirir. Təsadüfi deyil ki, Cənubi Qafqaz regionunun ümumi daxili məhsulunun 80 faizi Azərbaycanın payına düşür. Azərbaycanın tarazlaşdırılmış, praqmatik və uğurlu çoxvektorlu xarici siyasəti onu göstərir ki, bu ölkə dünya birliyinin mühüm, ciddi və güvənilə bilən tərəfdaşı kimi öz mövqeyini təsdiqləməyə və möhkəmlətməyə nail olub. Azərbaycan həm öz ərazisinə, həm əhalisinin sayına, həm də iqtisadiyyatının həcminə görə Cənubi Qafqazda ən iri və ən çox inkişaf etmiş dövlətdir”.

Qut yazır ki, TANAP qaz kəmərinin ilkin buraxıcılıq qabiliyyəti ildə 16 milyard kubmetrə bərabər olacaq. Ekspert vurğulayır: “Aydındır ki, “böyük neft” dövründən sonra “böyük qaz” dövrünün başlandığı Azərbaycan üçün bu xoş xəbər ölkəyə investisiyalar, sanballı gəlirlər axınını və onun siyasi maraqlarını vəd edir. Bu mənada ambisiyalı layihə bu gün artıq reallığa çevrilir”.

ABŞ dövlət katibinin köməkçisinin müavini Sandra Oudkirk Ankarada jurnalistlərə bildirib ki, Transanadolu qaz kəməri (TANAP) Avropanın və Türkiyənin enerji təhlükəsizliyinə şərait yaradacaq. Anadolu agentliyi Oudkirkin bu sözlərini sitat gətirir: “ABŞ TANAP layihəsinə sərmayə qoymayıb və bu layihədən kommersiya səmərəsi almayacaq, lakin Vaşinqton bu layihəni dəstəkləyir, çünki TANAP enerji təchizatının şaxələndirməsinə və enerji təhlükəsizliyinə şərait yaradacaq”.

Arye Qutun fikrincə, eyni səbəblər üzündən bu layihə Ermənistan üçün sadəcə pis xəbər olmayıb, dəhşətli yenilikdir. Ermənistan növbəti dəfə yeni regional superlayihəyə inteqrasiya etmək şansını əldən verib.

Beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut İsraildə çıxan nüfuzlu ingilisdilli “The Jerusalem Post” qəzetində dərc olunmuş məqaləsinin sonunda yazır: “Artıq neçə ildir ki, bu regionda iqtisadi və geoiqtisadi ab-hava Ermənistan tərəfindən deyil, Azərbaycan tərəfindən müəyyən edilir. Azərbaycan açıq şəkildə bəyan edir ki, rəsmi Yerevan Azərbaycanın Dağlıq Qarabağ regionunu və ona bitişik yeddi rayonunu işğaldan azad etməyincə Ermənistanın geosiyasi təcrid vəziyyətində saxlanması davam edəcək. Ermənistan işğal etdiyi ərazilərdə bir milyondan çox azərbaycanlıya qarşı etnik təmizləmə siyasətini həyata keçirib, 1992-ci ilin fevral ayında Azərbaycanın Xocalı şəhərində dəhşətli hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlər törədib.

BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə 822, 853, 874 və 884 nömrəli dörd qətnamə qəbul edərək Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq hüquqda tanınmış sərhədlərinin toxunulmazlığına hörmət bəslədiyini təsdiq edib. BMT Təhlükəsizlik Şurası həmin qətnamələrdə Dağlıq Qarabağ regionunun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiqləyərək erməni qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Digər beynəlxalq təşkilatlar da bu məsələdə oxşar mövqe tutublar. Beynəlxalq birlik Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini prinsipial mənada dəstəkləyir və buna hörmət bəsləyir”.

## Hikmət Babaoğlu: “Türkiyə xalqı ən doğru qərarı qəbul etdi”

***“Türkiyə Cümhuriyyəti 24 iyun seçkilərilə ən yeni siyasi tarixinin mühüm bir mərhələsinə qədəm qoydu”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.***



Millət vəkili bildirib ki, bu mərhələdən sonra başlayan siyasi era qardaş ölkənin önümüzdəki yüzillikdə yerini və rolunu müəyyən edəcək: “Mən bu seçkini önümüzdəki yüz illik kontekstində təsadüfən qiymətləndirmirəm. Hazırda beynəlxalq münasibətlər tarixinin çox mürəkkəb bir dövrünü yaşamqdayıq və Türkiyənin yerləşdiyi geostrateji rayon da daxil olmaqla bütövlükdə Yaxın Şərq və Şimali Afrika təhlükəsizlik baxımından ən çox təhdidlərə məruz qalan bir siyasi coğrafiyadır. Bu təhdidlərin mənbəyi bir sıra imperialist mərkəzlərdir. Onlar həmin siyasi coğrafiya üzərində siyasi və demoqrafik mühəndislik edərək yeni hibrid müharibələr vasitəsilə öz maraqlarına xidmət edəcək yeni nizam yaradırlar”.

H.Babaoğlu deyib ki, belə kiritik mərhələdə Türkiyənin regionun ən güclü aktoru kimi davranışları həm öz siyasi gələcəyi, həm də bütövlükdə regionun gələcəyi üçün olduqca vacib idi: “Qısacası ya türk xalqı doğru qərar qəbul edərək dövlətçilik və regionda söz sahibi ola bilmə problemini həll edəcək, ya da müsəlman Şərqinin digər dövlətlərinin taleyini yaşamağa məhkum ediləcəkdi. Düşünürəm ki, Türkiyə xalqı bu siyasi reallığı obyektiv qiymətləndirməyi bacarmaqla ən doğru qərarı qəbul etdi. Cümhur İttifaqının qələbəsi Türkiyənin gələcək inkişafı və sabitliyi baxımından olduqca mühüm bir hadisədir. Qələbənin təmin olunmasında isə heç şübhəsiz ki, təcrübəli dövlət adamı, ciddi siyasi iradə nümayiş etdirməyi bacaran, Türkiyənin milli maraqları baxımından mühüm qərarlar qəbul edən Rəcəb Tayyib Ərdoğanın liderlik keyfiyyəti əhəmiyyətli rol oynadı. Ədalət naminə qeyd etmək lazımdır ki, bu prosesdə Milliyyətçi Hərəkat partiyasının da başından bəri prinsipial mövqe ortaya qoyması, əslində bu ittifaqın gələcəyini və bütövlükdə qardaş ölkənin uğurlu siyasi gələcəyini müəyyən etdi”.

Millət vəkilinin sözlərinə görə, başqa bir məsələ ondan ibarətdir ki, Türkiyə bu seçkilərdən sonra yeni idarəetmə üsuluna keçəcək və Prezident üsul idarəsilə idarə ediləcək: “Həm tarixi reallığı, həm də bu günki siyasi prosesləri nəzərə alsaq deyə bilərik ki, bu mürəkkəb mərhələdə yeni idarə üsulunun tətbiqi həm milli mentalitetimiz, həm də siyasi məqsədlərə çatmaq baxımından ən doğru olandır. Türkiyə kimi mürəkkəb bir coğrafiyada yerləşən, olduqca mürəkkəb demoqrafik və ideoloji daxili mikrostruktura malik olan bir ölkənin vahid bir mərkəzdən idarə olunması sosial sifariş kimi ortaya çıxmışdı və Türkiyə xalqı öz sifarişini demokratik seçkilər vasitəsilə təmin etdi”.

Seçkilərdən sonra Türkiyə-Azərbaycan münasibətlərinin perspektivlərinə gəldikdə isə Hikmət Babaoğlu qeyd edib ki, bu perespektivlər həmişə yüsək səviyyədə olub və bundan sonra daha da yüksələn xəttlə inkişaf edəcək: “Həm iki ölkə xalqının siyasi sifarişi həm də qardaş ölkələrin liderlərinin dostluq və qardaşlıq münasibətləri, daim xalqlarımızın mənafeyi baxımından çıxış etmələri və bu maraqları uzlaşdırma bacarıqları Türkiyə-Azərbaycan münasibətlərini strateji müttəfiqlik səviyyəsinə qaldırıb”. Millət vəkilinin fikrincə, Azərbaycan həmişə ən çətin məqamlarda Türkiyəni və onun dəstəyini yanında hiss edib: “Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev TANAP layihəsinin açılışında çıxış edərkən bir daha bildirdi ki, Türkiyənin gücü bizim gücümüzdür. 24 yun seçkilərindən sonra Türkiyə bir az daha gücləndi. Deməli həm də Azərbaycan gücləndi. Mən qəbul etdikləri müdrik qərar münasibətilə Türkiyə xalqını, Türkiyədəki dostlarımı və bütövlükdə Cümhur İttifaqını təbrik edirəm”.

# QÜDRƏTLİ ORDU, GÜCLÜ DÖVLƏT!

## Prezident İlham Əliyev: "Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir"

***Sirr deyil ki, müstəqil və müasir Azərbaycan Silahlı Qüvvələri dövlətimizin qüdrətinin nümunəsi, xalqın qürur mənbəyidir. Ali Baş Komandan, Cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Bununla yanaşı, ordumuz yeni texniki imkanlar əldə etməklə həm də müasir, dünyada təcrübədən çıxmış müharibə və döyüş taktikalarını da mənimsəyir. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu amil regionla yanaşı, dünyada da qəbul edilən danılmaz tandemdir. Respublikamız Silahlı Qüvvələrin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. İşğal edilmiş ərazilərimizi qısa zaman ərzində tam azad etmək gücündə olan ordumuzun qüdrəti təcavüzkar Ermənistanın özündə də açıq etiraf olunmaqdadır.***



### Əbəs deyil ki, ölkəmizdə hazırlanan və digər dövlətlərdən əməkdaşlıq sayəsində alınan yüksək dağıdıcı gücə, dəqiqliyə malik döyüş vasitələri və sursatları qoşunlarımızın düşmən üzərində üstünlüyünü tam təmin edir

Azərbaycanda ordu quruculuğu ilə yanaşı, müdafiə sənayesinin inkişafı da diqqət mərkəzindədir. Bu gün ölkəmizdə 30-a yaxın hərbi zavod fəaliyyət göstərir və Silahlı Qüvvələrimizin tələbatı əhəmiyyətli dərəcədə istehsal edilən hərbi məhsullarla təmin olunur. Belə ki, dünyanın inkişaf etmiş aparıcı şirkətlərindən alınan ən müasir texnologiya və avadanlıqlarla təchiz olunan 60-dan çox istehsal sahəsi yaradılıb. Demək olar ki, bu gün Azərbaycan bu istiqamət üzrə də dünya miqyasında öz layiqli yerini tuta bilib. Azərbaycanın hərbi sənaye kompleksinin real istehsal gücü ordunu silah-sursat, hərbi texnika və digər vasitələrlə təmin etməklə yanaşı, xarici bazarlara da məhsul ixrac etməsinə şərait yaradıb. Beləliklə, hərbi sənayemizin inkişafı ordumuzun silah arsenalının yerli istehsal olan müasir silahlarla və digər hərbi təyinatlı məhsullarla gücləndirilməsinə və təkmilləşdirilməsinə zəmin yaradır. Əbəs deyil ki, ölkəmizdə hazırlanan və digər dövlətlərdən əməkdaşlıq sayəsində alınan yüksək dağıdıcı gücə, dəqiqliyə malik döyüş vasitələri və sursatları qoşunlarımızın düşmən üzərində üstünlüyünü tam təmin edir. Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycanda Silahlı Qüvvələrin modernləşdirilməsi ilə yanaşı, həm də son illərdə yerli istehsal hesabına hərbi birləşmələrin müxtəlif hərbi ləvazimatlara və döyüş sursatlarına olan ehtiyacını ödəməsi ölkəmizin Ermənistan qarşısında gücünü daha da artırır.

Bütün bunlarla yanaşı, Azərbaycan beynəlxalq təşkilatlarla, xarici dövlətlərlə hərbi sahədə ikitərəfli və çoxtərəfli əməkdaşlıq edir. Ötən illərin rəqəmlərinə müraciət etsək, biz bu reallığı bir daha görə bilərik. Belə ki, 2016-cı ildə 7 ölkə ilə analoji müqavilə sənədləri imzalanıb. 2017-ci ildə də bu faktor davam etdirilib. Hazırda isə 21 ölkə ilə müqavilə sənədlərinin imzalanması müzakirə edilir. Türkiyə, ABŞ, Almaniya, Böyük Britaniya, İtaliya, Pakistan, Çin, Rusiya, Ukrayna, Belarus, Moldova, Polşa, Rumıniya, Bolqarıstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Estoniya, Gürcüstan, Özbəkistan, Tacikistan, İordaniya, Bəhreyn, Fransa, Çexiya, Sloveniya, Serbiya, Koreya Respublikası və s. ilə ikitərəfli əsasda hərbi əməkdaşlıq həyata keçirilir. Azərbaycan dünyanın 34 ölkəsi ilə hərbi əlaqələrin normativ-hüquqi bazasını təşkil edən saziş və memorandumlar imzalayıb.

### Hərbi tərəfdaşlarının sayını gündən-günə artıran Azərbaycan həm də istənilən ölkədən ən müasir hərbi texnika, silah-sursat alaraq öz müdafiə gücünü artırır

Qardaş Türkiyə ilə Azərbaycan arasındakı strateji və hərbi əməkdaşlıq da tam sürətlə davam etdirilməkdədir. Ötən il Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüşlərdə bu kimi məsələlər davamlı olaraq gündəmə gətirilir. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayan dövlət başçıları siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu dəfələrlə vurğulayıblar. Bu, belə nəticəyə gəlməyə zəmin yaradır ki, Azərbaycan və Türkiyə prezidentləri iki qardaş ölkənin hərbi sahədə əməkdaşlığının daha da genişləndirilməsini və möhkəmləndirilməsini vacib hesab ediblər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərin də müzakirə olunduğu görüşlərdə Prezident İlham Əliyev təmas xəttində Ermənistanın təxribatları və hərbi cinayətləri barədə Türkiyə Prezidentinə ətraflı məlumat verib. Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin həmişə olduğu kimi, münaqişənin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həllinə dəstək verdiyini vurğulayıb. Dövlət başçıları vurğulayıblar ki, Türkiyə və Azərbaycan bütün məsələlərlə bağlı bir-birinin yanındadırlar.

Hərbi tərəfdaşlarının sayını gündən-günə artıran Azərbaycan həm də istənilən ölkədən ən müasir hərbi texnika, silah-sursat alaraq, öz müdafiə gücünü artırır. Hərbi xərclərin artması ordumuzun zirehli texnikasının, aviasiya vasitələrinin və digər hərbi təyinatlı məhsulların daim yenilənməsinə və təkmilləşdirilməsinə şərait yaradıb. Elmin son nailiyyətləri nəzərə alınmaqla və yeni texnoloji elementlərin tətbiqi ilə dünyanın aparıcı silah istehsalçıları tərəfindən hazırlanan yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik döyüş texnikasının, silah-sursatın və digər hərbi vasitələrin Silahlı Qüvvələrimizin təchizatına daxil edilməsi davam edir.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasındakı hökumətlərarası razılaşmaya əsasən və uğurla inkişaf edən hərbi-texniki əməkdaşlıq çərçivəsində ölkəmizə ən yeni hərbi texnikanın planauyğun çatdırılması isə bunun əyani sübutudur.

# QÜDRƏTLİ ORDU, GÜCLÜ DÖVLƏT!

## Prezident İlham Əliyev: "Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir"

**Azərbaycan Silahlı Qüvvələrinin arsenalındakı ən müasir, dağıdıcı qüvvəyə malik döyüş texnikası Ermənistanın istənilən təhdidinin qarşısını almağa, onu məhv edərək, ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir**



Ötən il və cari ildə Rusiyadan Bakı limanına gətirilən çoxlu sayda müasir döyüş texnikası, silah, sursat, artilleriya və raket sistemləri üçün mərmilər, raketlər və digər hərbi-texniki əmlak cəbhəboyu zonaya göndərilir. Bu silahlar düşmənin zirehli texnikası, mühəndis-istehkam qurğuları, kiçiksürətli hava hədəfləri, canlı qüvvəsi və digər hərbi obyektlərinin vurulması üzrə Silahlı Qüvvələrimizin ön xətt bölmələrinin döyüş və manevr imkanlarını artıracaq. Azərbaycan Silahlı Qüvvələrinin arsenalındakı ən müasir, dağıdıcı qüvvəyə malik döyüş texnikası Ermənistanın istənilən təhdidinin qarşısını almağa, onu məhv edərək, ərazi bütövlüyümüzü bərpa etməyə qadirdir. Müdafiə Nazirliyinin yaydığı məlumata görə, Rusiya hərbi texnikasının və silahlarının Azərbaycana gətirilməsi davam edəcək.





Prezident İlham Əliyev zaman-zaman bu məsələyə toxunaraq, vurğulayır ki, Azərbaycan dövləti, həmişə olduğu kimi, Silahlı Qüvvələrinin hərbi potensialının gücləndirilməsinə böyük diqqət göstərib və göstərməkdə davam edəcək: "Yeni silahlar, ən müasir texnika alınır. Özü də biz texnikanı, silahları, ən müasir avadanlığı müxtəlif ölkələrdən alırıq və onların bir hissəsi artıq gəlir, bir hissəsi isə gələcəkdir. Bu, bizim hərbi potensialımızı daha da artıracaq. Bu günün özündə biz işğal edilmiş torpaqlarda istənilən hədəfi məhv edə bilərik. Amma biz öz hərbi potensialımızı daha da gücləndirməliyik. Buna ehtiyac var və buna bizim imkanlarımız çatır. Yoxsul Ermənistandan fərqli olaraq, biz bütün hərbi texnikanı öz hesabımıza alırıq və Azərbaycanda da bu texnikanı istehsal edirik. Azərbaycanda iki yeni hərbi zavod fəaliyyətə başlamışdır. Bu gün Azərbaycan həm özünü böyük dərəcədə silah-sursatlarla təmin edir, eyni zamanda, xarici ölkələrə də ixrac edir".



**Yaşasın qüdrətli və şanlı Azərbaycan Ordusu!**

Bu il Azəraycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü qeyd olunmaqla yanaşı, Azərbaycan Ordusunun da bayramıdır. 100 illik tarixə malik olan bir ordunun müasir və müstəqil Azərbaycan dövlətinin təməlini qoruyub-mühafizə etməsi hər bir azərbaycanlıda iftixar hissi oyadır. Şanlı ordumuz isə öz qələbə və zəfərləri ilə bunu təsdiq edir. 2016-cı ilin aprel zəfəri və 2018-ci ilin may ayında Naxçıvanda düşmən tapdağından azad edilmiş 11 min hektar ərazilərimiz növbəti qələbələrə - Şuşaya, Xankəndinə aparan zəfər yolumuzdur.

Eyni zamanda, bütün bunlar, bir daha təsdiq edir ki, Ali Baş Komandan, Prezident İlham Əliyev Cənablarının yüksək diqqət və qayğısı nəticəsində döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı yüksələn, təminat və təchizatı xeyli təkmilləşən Azərbaycan Ordusu dövlətin və xalqın etimadını doğruldaraq, qarşıda duran ən əsas vəzifəni - torpaqlarımızı düşməndən azad etməyə və ərazi bütövlüyümüzü təmin etməyə qadirdir. Yaşasın qüdrətli və şanlı Azərbaycan Ordusu!

***Nəriman ƏLİYEV,***
***Milli Məclisin deputatı***

# "Hərbi parad beynəlxalq aləmdə də maraqla izlənilir"

## *Ali Baş Komandan İlham Əliyevin Ordu siyasəti 2016-cı il aprel döyüşlərində öz sözünü dedi*

**"Tezliklə Azərbaycan Ordusu qələbə paradını Xankəndidə keçirəcəkdir"**

İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyidir. Bu münasibətlə "Azadlıq" meydanında təntənəli şəkildə hərbi parad keçiriləcək. Söhbət etdiyimiz müsahiblərimiz bu gün Azərbaycanın güclü, qüdrətli ordusunun formalaşdığını və bu ordunun qurulmasında və inkişafında Ümummilli Liderimiz Heydər Əliyevin böyük zəhməti, əməyi olduğunu və bu siyasətin bu gün ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdilər.

Millət vəkili Eldəniz Səlimov: **"Ermənistan ordumuzun gücünü aprel döyüşlərində hiss etdi"**



- Azərbaycan Milli Ordusunun 100 illiyi hər bir Azərbaycan vətəndaşı kimi bizi də qürurlandırır. 1918-ci ildə yaradılan Milli Ordu kiçik zaman kəsiyində formalaşmağa başladı və yadelli işğalçılara qarşı mübarizəyə qoşuldu. Lakin müstəqillik qazanmış ölkəmiz xarici qüvvələrin işğalçılıq siyasəti nəticəsində, 23 aylıq müstəqilliyini əldən verdi. İkinci dəfə ölkəmiz müstəqilliyinə qovuşduğu bir zamanda Milli Ordunu gücləndirmək əvəzinə, kiçik hissələrə bölməklə, belə demək mümkünsə, şəxsi ordu hissələrinə çevirdilər. Nəticədə torpaqlarımız işğal olundu, 1 milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkün halına düşdü. Bütün bunlar səriştəsiz ölkə rəhbərlərinin dövləti idarə etmək qabiliyyətlərinin olmaması üzündən baş vermişdi. Ölkədə hərc-mərclik baş alıb gedirdi. AXC-Müsavat iqtidarı çıxış yolunu Ümummilli Lider Heydər Əliyevə müraciət etməkdə gördü və Onu ölkəni dağılmaq təhlükəsindən xilas etmək üçün hakimiyyətə dəvət etdi. Xalq da ayağa qalxdı. Nəticədə, Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə gətirildi. Məhz ordu quruculuğu həmin gündən başladı. Ölkədəki silahlı qüvvələr bir yerə birləşdirildi və dövlətin tam nəzarətinə keçdi. Silahlı qüvvələr üçün kadr hazırlığını daha da təkmilləşdirmək məqsədilə Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Hərbi-Təyyarəçilik Məktəbi, Azərbaycan Hərbi-Dənizçilik Məktəbi və digər təyinatlı məktəblərin açılması ordu quruculuğunun inkişafına böyük təkan verdi. Bu gün Azərbaycanın Milli Ordusu Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf etdirilərək, regionun ən güclü ordularından birinə çevrilib. Hərbi sənaye gündən-günə inkişaf edir və ordu quruculuğunu müasir texnika ilə təmin edir. İnkişaf etmiş ordumuz bir sıra ölkələrin orduları ilə təlim-məşq toplanışlarında olur və yüksək nəticələr əldə edir. Ermənistan ordumuzun gücünü aprel döyüşlərində hiss etdi və bu baxımdan, bu gün onlar təşviş içində yaşamaqdadırlar. Son dövrlərdə Naxçıvanda Cocuq Mərcanlının, Lələ Təpənin ardınca Günnüt kəndi də daxil olmaqla 11 min hektar ərazinin düşməndən azad edilməsi Azərbaycan Ordusunun gücünün və qüdrətinin hansı səviyyədə olduğunu təsdiqlədi. Son 25 ildə ordumuzun sürətli inkişafı bizə deməyə imkan verir ki, yaxın zamanlarda işğal olunmuş torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi ilə işğaldan azad olunacaq. Cocuq Mərcanlıda yaradılmış şəraitə uyğun olaraq dağılmış ərazilərimiz yenidən qurulacaq, qaçqın və köçkünlərimiz öz torpaqlarına qayıdacaqlar. Tarixi varislik ənənəsinə uyğun olaraq Prezidentin fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 İyun Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir. Bayram münasibətilə hər birinizi təbrik edir, ordumuza uğurlar arzulayırıq.

Millət vəkili Azər Badamov: **"Azərbaycan Ordusu dünyanın ən güclü orduları arasındadır"**



- Azərbaycan Ordusu dünyanın ən güclü orduları arasındadır. Yəni ordumuz dünyanın ən güclü 50 ordusu arasında ön sıradadır. Bu, böyük göstəricidir və böyük uğurumuzdur. Son illər dövlətimiz orduya böyük diqqət yetirmişdir. Azərbaycan Ordusu Ali Baş Komandanın diqqət və qayğısı sayəsində ən müasir texnikalarla və texnologiyalarla təchiz edilib. Bu gün regionun ən güclü ordusu olaraq Azərbaycan Ordusu dövlət sərhədlərini və təhlükəsizliyini etibarlı şəkildə qorumağa qadirdir. İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi parad keçiriləcəkdir. Bu paradda nümayiş olunacaq hərbi texnikalarımızın gücü və imkanları özü-özlüyündə deməyə imkan verəcək ki, bugünkü ordumuz Azərbaycanın təhlükəsizliyinin qarantıdır. Ən əsası da odur ki, ordumuz iradəli və düşünülmüş siyasəti olan Ali Baş Komandan rəhbərlik edir. Ordumuz Ali Baş Komandanın hər bir əmrini yüksək səviyyədə icra etməyə hazırdır. Biz bunu həm aprel döyüşlərində və Cocuq Mərcanlının azad edilməsində, həm də Naxçıvanda 11 min hektar ərazinin işğalçılardan təmizlənməsində ordumuzun gücünü görmüşük. Təbii ki, Azərbaycan Ordusu bütün işğal altındakı torpaqlarımızı azad etmək iqtidarındadır. Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibəti ilə keçiriləcək hərbi paradda nümayiş olunacaq hərbi texnikamız düşmənə bir mesaj olacaq. Bununla nümayiş etdirəcəyik ki, bizim güclü ordumuz var. Təbii ki, düşmən indidən Azərbaycan Ordusunun gücünü görərək, təşvişə düşüb. Əgər siz danışıqlar massası arxasında əyləşməsəniz və sülh yolu ilə məsələnin nizamlanması prosesində iştirak etməsəniz, təbii ki, sonu yaxşı qurtarmayacaq. Nəinki işğal altında olan torpaqlarımızı, hətta Göyçəni və Zəngəzuru da azad edəcəyik. Düşünürəm ki, düşmən bundan nəticə çıxartmalıdır və bütün bunlar da, onu deməyə imkan verir ki, işğal prosesi uzun çəkməyəcəkdir.

"Palitra" qəzetinin Baş redaktoru Namiq Əliyev: **"Xalqımız öz Milli Ordusu ilə fəxr edir"**



- Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı rəsmi mərasimdə belə bir fikir söylədi ki, Xalq Cümhuriyyətinin qurucuları bu günü görsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər. Eynilə də, Milli Ordunu yaradan generallar-Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, hərbi nazir Xosrov Paşa bəy Sultanov bugünkü hərbi qüdrətimizi görsəydilər, qürur duyardılar. Bu gün beynəlxalq təşkilatların rəyinə görə, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Ordumuzun bu səviyyəyə çatmasında Prezident İlham Əliyevin müstəsna xidmətləri var. Yeri gəlmişkən, Prezidentin fəaliyyət prinsipində bir xüsusiyyətini xatırlatmaq istəyirəm. O, istənilən sahə üçün lazım olan avadanlığın dünyadakı ən son modelinin ölkəyə gətirilməsini tələb edir. Bu yanaşma ordu quruculuğu sahəsinə də aiddir. Azərbaycan Ordusu ən müasir texnologiya, avadanlıqlar və silahlarla təchiz olunub. Elə bu ay Belarus və İsraildən hədəfi yüksək dəqiqliklə vura bilən ən müasir raketlər aldıq və onların təqdimatında Prezident özü də iştirak etdi. Ermənistandan fərqli olaraq, bu hərbi texnikanı öz hesabımıza alırıq, həmçinin, Azərbaycan özü hərbi məhsullar istehsal edə bilir. Silahlı Qüvvələrimizin tələbatının müəyyən hissəsi ölkədə istehsal edilən yerli hərbi məhsullar hesabına ödənilir. Dünyanın ən güclü dövlətləri ilə hərbi əməkdaşlıq qurmuşuq, aparıcı silah şirkətləri ilə sıx əlaqələrimiz var. Ən əsası da odur ki, xalqımız öz Milli Ordusu ilə fəxr edir, onun nailiyyətlərini yüksək qiymətləndirir. 2016-cı ildə Qarabağdakı aprel döyüşlərinə, 2018-ci ildə Naxçıvandakı Günnüt əməliyyatına xalqımızın münasibəti göz qabağındadır. Sosial şəbəkələrdə ən çox izlənilən, paylaşılan, oxunan, qürur duyulan xəbərlər bu əməliyyatlarla bağlı idi. İnanırıq ki, aprel döyüşünün və Günnüt qələbəsinin ardınca yeni qələbələrin şahidi olacağıq. Baxın, 2 il əvvəl Qarabağda 2 min hektar sahəni düşməndən azad etmişdik, 2018-ci ildə Naxçıvanda bu rəqəm 11 min hektara çatdı. Bu, o deməkdir ki, Azərbaycan Silahlı Qüvvələri xalqımızı daha böyük qələbələrlə sevindirəcək.

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov: **"Tezliklə Azərbaycan Ordusu qələbə paradını Xankəndidə keçirəcək"**

- İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibəti ilə "Azadlıq" meydanında təntənəli hərbi parad keçiriləcək. Bu hərbi parad hərbi qüvvələrimizin gücünü bütün dünyaya və düşmənlərimizə nümayiş etdirəcək. Artıq tanınmış beynəlxalq hərbi ekspertlər keçiriləcək parad haqqında öz təhlillərini əvvəlcədən bildirmişlər. Bu da, onu göstərir ki, bu hərbi parad beynəlxalq aləmdə də maraqla izlənilir. Azərbaycan Ordusu bu gün ən müasir texnikalarla təhciz edilmişdir. Azərbaycan əsgərinin hazırlıq səviyyəsi dünyanın ən qabaqcıl ordularının səviyyəsindən geri qalmır. Ən əsası isə Azərbaycan əsgərinin ruh yüksəkliyi düşmənə zərbə vurmaq potensialı bu gün çox güclüdür. Bütün bunlar təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasətinin nəticəsi və bu siyasəti uğurla davam etdirən Ali Baş Komandanımız Cənab İlham Əliyevin səylərinin bəhrəsidir. Müstəqil Azərbaycan Ordusunun təməli 1918-ci ildə AXC dövründə qoyulsa da, 1920-ci ilin işğalı Milli Ordumuzun inkişafını dayandır-



dı. Sovetlər dövründə də azərbaycanlılara qarşı olan qısqanclıq milli hərbi kadrların yetişməsinə mane olurdu. Lakin buna baxmayaraq Ulu Öndər Heydər Əliyevin sovetlər dönəmində respublikanın rəhbərliyi zamanında milli hərbi kadrların yetişməsi istiqamətində apardığı uzaqgörən siyasət və mübarizə nəticəsində azərbaycanlı hərbi kadrlar yetişməyə başladı. Cəmşid Naxçıvanski adına Hərbi Litseyin yaradılması isə o dövrdə böyük hadisə və qəhrəmanlıq nümunəsi idi. Məhz bu əməyin nəticəsi idi ki, 1988-1994-cü illərdə Azərbaycan xalqı və ordusu təpədən-dırnağa qədər silahlanmış və havadarlarının köməyi ilə işğalçılıq siyasəti aparan Ermənistana qarşı mübarizə apara bildi. Məhz həmin kadrların əvəzsiz xidmətləri nəticəsində Azərbaycan Ordusu uğurlu əməliyyatlarla düşməni dayandıra bildilər. Bu gün də Ali Baş Komandan İlham Əliyevin Ordu siyasəti 2016-cı il aprel döyüşlərində öz sözünü dedi. Düşmənin burnu əzildi, havadarının köməyi olmasa idi torpaqlarımız tam azad olunmuşdu. Nəhayət, bu yaxında Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisinin azad olunması isə düşmənin artıq ordumuz qarşısında acizliyini göstərdi. Düşmən ordumuzla açıq döyüşdən belə qaçaraq, öz postlarının tərk etdi. Bütün bunlar Azərbaycan Ordusunun gücünün bariz nümunəsidir. Azərbaycan xalqı öz ordusunun yanındadır, ona və Ali Baş Komandan Cənab İlham Əliyevə inanır. Tezliklə Azərbaycan Ordusu qələbə paradını Xankəndidə keçirəcək. Xalqımız buna tam əminliklə inanır.

**GÜLYANƏ**

# Türkiyə xalqı daha uğurlu gələcəyinə səs verdi

*Rəcəb Tayyib Ərdoğanın qələbəsi ölkənin inkişaf modelinə cəmiyyət tərəfdən dəstək verilməsindən xəbər verir*




***Türkiyədə keçirilən 24 iyun seçkiləri dünya miqyasında marağa səbəb oldu. Bu hadisənin ölkənin daxili siyasi mühitində baş verən proseslərin məzmunu və xarakterinin müəyyən edilməsi baxımından əhəmiyyəti danılmazdır. Regional geosiyasi proseslərdə rəsmi Ankaranın oynaya biləcəyi rol da dəqiqləşdirilmədir. Qlobal səviyyədə müşahidə edilən ziddiyyətlərin həllinə Türkiyənin hansı töhfələri verəcəyi də sıradan bir məsələ deyil. Mütəxəssislər Rəcəb Tayyib Ərdoğanın və AKP-nin qələbəsini bir sıra müsbət aspektlər kontekstində təhlil edirlər. Türkiyənin istər region, istərsə də beynəlxalq aləmdə oynayacağı bundan sonrakı rolu ətrafında maraqlı tezislər irəli sürülür və proqnozlar verilir. Bütövlükdə isə, geosiyasət üçün aktual olan bir sıra mühüm məqamlara toxunulur.***

## Türkiyədəki seçkilərin sivil siyasi mübarizənin qaydalarına uyğun keçirilməsi müsbət qiymətləndirilir

Bütövlükdə, AKP-nin və Rəcəb Tayyib Ərdoğanın birmənalı qələbəsi, həm də siyasi qüvvələr nisbətini ifadə edir. Bəzi mütəxəssislər burada siyasi qütbləşmənin əlamətlərini görürlər. Eyni zamanda, analitiklər bildirirlər ki, seçkilərdə uduzan müxalifətin özü də kifayət qədər marginallaşıb.

Bütövlükdə isə, Türkiyədəki seçkilərin sivil siyasi mübarizənin qaydalarına uyğun keçirilməsi müsbət qiymətləndirilir. Rəcəb Tayyib Ərdoğanın qələbəsi ölkənin inkişaf modelinə cəmiyyət tərəfdən dəstək verilməsindən xəbər verir. Daxili siyasətdə əldə edilən uğurlar xarci siyasətdə də özünü göstərəcək. Belə ki, seçkilərin nəticələri, eyni zamanda, rəsmi Ankaranın xarici siyasət kursuna sadiq qalacağını ifadə edir. Məsələ bundadır ki, Türkiyə faktiki olaraq, böyük və köklü dövlət olduğunu bir daha təsdiqlədi. İqtidarda olanların kimliyindən asılı olmayaraq, Ankara sabit xarici siyasət həyata keçirir. Həmin səbəbdən, R.T.Ərdoğanın prezidentliyi dövründə Azərbaycanın Türkiyəyə ən yaxın tərəfdaş olacağına şübhə yoxdur.

## Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev ölkələr arasındakı əlaqələri yeni səviyyəyə qaldıracaqlar

Azərbaycan Prezidenti İlham Əliyevin R.T.Ərdoğanı səmimiyyətlə təbrik etməsi və əməkdaşlığın inkişafı aspektində müəyyən təkliflər irəli sürməsi bunun əyani sübutudur. Bu, həm də onu göstərir ki, Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev ölkələr arasındakı əlaqələri yeni səviyyəyə qaldıracaqlar.

Türkiyədə keçirilmiş prezident seçkisi ümumən Yaxın Şərqdə geosiyasi mənzərənin yeniləşməsinə səbəb ola bilər. Həmin regionda hadisələrin gedişatı göstərir ki, Ankara kifayət qədər balanslaşdırılmış və ədalətli siyasət yeridir. Bütün bunlar isə Türkiyədə prezident seçkisinin nəticələrinin ölkədaxili, regional və qlobal miqyasda siyasi proseslərə təsir edə biləcəyini göstərir. Beləliklə, seçkilərin nəticələri bir çox aspektlərdə yeniləşmələrin olacağı proqnozlaşdırılır və bu proqnozların reallaşdırılması öz uğurlu və məntiqi nəticələrini tezliklə verəcək.

***Rövşən RƏSULOV***

## İlham Quliyev: “Seçim növbəti illər üçün Türkiyədə sabitliyin və perspektivin qarantı olacaq”



“İyunun 24-də Türkiyə öz tarixinin ən kritik seçkilərindən birini keçirdi. Konstitusiya dəyişikliyindən sonra keçirilən ilk seçkidə həm ilk dəfə olaraq prezident seçildi, həm də parlament formalaşdırıldı”. Bunu SİA-ya açıqlamasında “Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev deyib. Onun sözlərinə görə, seçkidən qabaq onun nəticələri ilə bağlı müxtəlif proqnozlar verilsə də, türk xalqı ən doğru olanı seçimi etdi. İndiki prezident Rəcəb Tayyib Ərdoğan seçicilərin 53 faizinin səsini qazanaraq elə birinci turdaca qalibiyyətini elan etdi: “Onun rəhbərlik etdiyi AKP-nin MHP ilə birgə yaratdığı Cumhur İttifaqı da parlamentdə səslərin yarıdan çoxunu qazandı. Beləliklə, çoxlarının arzularının əksinə olaraq türk xalqı növbəti demokratiya imtahanından üzüağ çıxdı. Seçkiyə qatılan tərəflərin hər biri nəticələri qəbul etdi. Ərdoğanın əsas rəqibi olan CHP-nin namizədi Mühərrəm İncə də mətbuat konfransı keçirib, nəticələrlə razılaşdığını, seçkiləri uduzduğunu etiraf etdi. Türkiyəni qarışdırmaq, xaosa sürükləmək istəyənlərin arzuları növbəti dəfə ürəklərində qaldı. İkincisi, Türkiyə regionda və dünyada kifayət qədər mürəkkəb şəraitdə ən doğru olan seçimi etdi. Bu seçim növbəti illər üçün Türkiyədə sabitliyin və perspektivin qarantı olacaq. Türk seçicisi həm də Ərdoğan hakimiyyətinin son vaxtlar terrora qarşı apardığı mübarizəyə dəstək nümayiş etdirdi, hökumətin addımlarından razılığını ifadə etdi. Ərdoğanın və partiyasının zəfəri Azərbaycan üçün də ən sərfəli seçim idi. Çünki bu komandanın Azərbaycanla siyasi və iqtisadi sferada əməkdaşlığa verdiyi dəstək göz önündədir. Ərdoğan hakimiyyəti dövründə Azərbaycan və Türkiyə sözün əsl mənasında “bir millət-iki dövlət” prinsipi əsasında əməkdaşlıq edib. Böyük regionla layihələrə razılaşdırılıb, icra edilib və edilməkdədir. Azərbaycan Türkiyənin ən böyük xarici sərmayədarına çevrilib. AKP hökumətlərinin, prezident Ərdoğanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu mövqe də hamımıza məlumdur. Amma təəssüf ki, müxalifətin namizədi olan M.İncə seçki kampaniyası boyu bir dəfə də Dağlıq Qarabağ münaqişəsindən söz açmadı. Bütün bunları ümumiləşdirəndə Azərbaycan üçün də Ərdoğanın və partiyasının zəfəri sevindirici oldu. Təsadüfi deyil ki, Türkiyə liderini seçkilərdəki qələbə münasibətilə ilk təbrik edən də məhz Azərbaycan Prezidenti İlham Əliyev oldu”.



**MƏTLƏB**
Metlebsalahov@mail.ru

## Ərdoğandan Qərbdəkilərə tərs şillə!

***Türkiyə artıq seçimini etdi. Əslində, Rəcəb Tayyib Ərdoğanın CHP-nin prezidentliyə namizədi olan Məhərrəm İncəyə qalib gələcəyini öncədən də düşünmək olardı. Çünki R.T.Ərdoğanın qələbəsini şərtləndirən, M.İncənin isə tam əksinə olaraq, məğlubiyyətini proqnozlaşdıran kifayət qədər əsaslar var idi. Bu seçki elə bir vaxtda keçirilirdi ki, dünya siyasətinin çalxalandığı, dünyadakı mövqelər uğrunda supergüclərin açıq mübarizəyə başladıqları zamanda, bunların tam əksinə olaraq, Türkiyənin bu meydanda artıq əsas söz sahiblərindən birinə çevrildiyi bir vaxtda, “atları dəyişdirmək” mümkünsüz idi. Türk xalqının belə bir siyasi keçiddə yenidən Ərdoğanı iş başında saxlaması, həm də bir xalq olaraq dünyada ona olan saygını da xeyli yüksəltdi.***

Düzdür, seçki olduqca gərgin bir prosesdə keçdi. Bir çoxları artıq M.İncənin Ərdoğana qarşı inamlı duruş göstərdiyini açıqladı, əksəriyyət Türkiyənin AKP-ni artıq CHP-yə dəyişməyə hazırlaşdığını yazdı. Amma nəticə yenə Ərdoğanın xeyrinə oldu. Qərbin bütün KİV-ləri hələ seçkidən öncə CHP namizədinə qarşı qanun pozuntuları barədə yazdı, əksəriyyət də yerli mətbuatın açıq-aşkar Ərdoğanın xeyrinə mövqe tutduğunu, M.İncəyə yer vermədiklərini iddia etdi. Sözsüz ki, AKP-nin əlində artıq kifayət qədər media resursu var və bunlar təbliğat üçün istifadə olundu. Amma Ərdoğanın yenidən prezident kürsüsündə oturmasının da olduqca önəmli bir neçə səbəbəi var idi. Nədir bunlar?

İlk öncə, deyək ki, Kamal Kılıçdaroğlu kimi siyasi baxımdan yetişməmiş, liderlik keyfiyyətləri olduqca zəif olan birisinin, dünya siyasətində ABŞ başda olmaqla, bir sıra supergüclərin qarşısında dik duran xarizmatik duruşu ilə Türkiyənin siyasi tarixində ikinci Atatürk olmağa haqq qazanan Rəcəb Tayyib Ərdoğana qarşı meydana çıxması, CHP üçün daha faciəli seçki sonluğu yaradardı. Nəzərə alsaq ki, prezident seçkiləri ilə yanaşı, həm də parlament seçkiləri də keçirildi qardaş ölkədə. Bu isə, heç şübhəsiz ki, CHP-nin parlamentdə daha az yer almasına gətirib çıxaracaqdı. Bunu anlayan K.Kılıçdaroğlu, Ərdoğanla siyasi savaşa M.İncəni meydana buraxdı. Təcrübəsiz, amma siyasi karyerası K.Kılıçdaroğlu kimi zədələnməmiş birisinin meydanlarda kifayət qədər səs gətirəcək natiqlik göstərməsi, Ərdoğana qarşı məntiqli təbliğat müharibəsinə baş vurması türk siyasəti üçün yeni simanın qazanılması baxımından nə qədər önəmli oldusa, onun bu seçkiləri uduzması da məntiqlə real nəticə oldu. Türkiyə, dünyanın bu gərgin vaxtında, Türkiyənin gücləndiyi ərəfədə xarizmatik Ərdoğanı təcrübəsiz M.İncəyə dəyişmədi.

İkincisi də, Ərdoğan bu seçkilərdə inamlı qələbə qazanmaqla, ilk növbədə, xaricdəki supergüclərə, daha real desək, hakimiyyətinə qarşı düşmən kəsilən Qərb kəsiminə də əla “dərs” vermiş oldu. Onsuz da dünya siyasətində supergüclərin əmrlərini ayaq altına atan, heç bir qüvvənin təsiri altına düşməyərək, müstəqil siyasət apara bilən lider kimi özünü sübuta yetirən R.T.Ərdoğanı “bitirmək” üçün Qərb kanalları min yola baş vurublar. Həqiqətən də, Ərdoğan xarizmatik liderlik keyfiyyəti ilə Türkiyəni də dünya siyasətində əsas söz sahibinə çevirdi, regional güc kimi önə çıxardı. Bundan başqa, dünyanın ən güclü iqtisadiyyatına sahib olan 5 ölkəsindən biri olaraq Türkiyə öndədir.

Özü artıq hərbi texnika istehsal edir, NATO-dan silah dilənəcək, iqtisadiyyatı borclarla boğuşan Türkiyə artıq 90-cı illərdə qaldı. Belə bir Türkiyə isə, onu zəif görmək istəyənlərin yuxusuna haram qatıb. Türkiyə xalqı, bu mənada da, böyük udusa imza atdı. Çünki bütün bu işlərin görüldüyü, Türkiyənin güclü mövqeyə sahib olduğu bir vaxtda, təcrübəsiz M.İncənin iş başına keçməsi, Türkiyə üçün, sözün əsl mənasında, tarixi intihar olardı. Ərdoğan isə, bu siyasi intiharı Qərbdəkilərə yaşatdı. Əvvələr yaşatdığı kimi...

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Azadlıq nəğməsi" siyasi-tarixi romanı çap edilib




Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan "Azadlıq nəğməsi" siyasi-tarixi romanı çap edilib. AZƏRTAC-ın Türkiyə üzrə xüsusi müxbiri Sabir Şahtaxtının müəllifi olduğu roman Azərbaycan xalqının milli dövlətçilik uğrunda apardığı siyasi mübarizəni, xüsusilə dövlət müstəqilliyimizin bərpası prosesində keçdiyimiz şərəfli və keşməkeşli yolu tərənnüm edir.

Şahvə və Şölə adlı obrazların həyat yolunu qələmə alan müəllif Azərbaycan xalqının azadlıq istəyinin ölməzliyini oxucuya çatdırmağa çalışır. Şölənin ailəsində yaşanan bütün faciələrin səbəbkarı ermənilərin Dağlıq Qarabağa olan əsassız ərazi iddiasıdır. Bu ailədə yaşananlar Azərbaycanın müstəqilliyi uğrunda ağrılar yaşayan, şəhid verən bütün ailələrin həyat dramları, ailə acısı kimi təsvir edilir. Müəllif XX əsrdə yaşadığımız ictimai-siyasi proseslərə peşəkarlıqla nəzər salır, torpaqlarımızın bir hissəsinin işğal edilməsini, habelə Naxçıvanın işğal təhlükəsindən xilasını, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ötən əsrin sonundakı tarixi xilaskarlıq missiyasını real hadisələrin fonunda təsvir edir.

Şahvə yanvarın 20-də, Şölə isə fevralın 26-da doğulublar. Hər iki gəncin ən böyük arzusu ad günlərini qeyd etmək olsa da, xalqımızın taleyindəki 20 Yanvar faciəsi və Xocalı soyqırımı onların bu istəyini ürəklərində qoyur.

Əsərdəki bütün proseslər bu iki qara günlə bağlanaraq obrazlı şəkildə oxucuya çatdırılır. Xüsusilə gənc nəsil üçün maarifləndirici və vətənpərvərlik ruhu aşılayan "Azadlıq nəğməsi" romanı 1988-ci il 5 dekabr hadisələrindən başlayaraq xalqımızın başına gətirilən bütün müsibətləri özündə əks etdirir.

Qeyd edək ki, "Azadlıq nəğməsi" İstanbulda türk dilində, İranda isə farsca çapa hazırlanır. Əsərin türk dili versiyasının ön söz müəllifi görkəmli alim, professor Aygün Əttar, tərcüməçisi, tanınmış yazıçı-publisist Mətin Yıldırımdır.

Kitabın fars versiyası isə tanınmış şair-yazıçı Əkbər Əlyar Həmidinin tərcüməsində və ön söz müəllifliyində nəşrə hazırlanıb.

# "Ordumuz - qürurumuzdur"

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə YAP Masallı rayon təşkilatı aparatında tədbir keçirilib*



Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatında "Ordumuz qürurumuzdur" mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev Silahlı Qüvvələrin yaranmasının 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik edib və Azərbaycan Ordusunun yaranma tarixindən, Ümummilli Lider Heydər Əliyevin ordumuzun formalaşmasında və gücləndirilməsindəki xidmətlərindən danışıb: "Azərbaycan Ordusu yarandığı 100 il müddətində keşməkeşli və şərəfli yol keçib. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə yaranan Silahlı Qüvvələr həmin dövrdə Dağlıq Qarabağda aparılan hərbi əməliyyatlarda düşməni ağır məğlubiyyətə uğradaraq, ölkənin ərazi bütövlüyünün müdafiəsini təmin edib. Sovet Rusiyasının Azərbaycanı işğalından sonra Milli Ordunun ləğv edilməsinə baxmayaraq, xalqımız hərbi ənənələri qoruyub-saxlayıb". S.Əliyev, həmçinin, bildirib ki, böyük siyasi xadim Heydər Əliyevin ordu quruculuğunda əvəzsiz xidmətləri olub. Onun sözlərinə görə, Ulu Öndər 1971-ci ildə Cəmşid Naxçıvanski adına İxtisaslaşdırılmış Hərbi Məktəbi yaratmaqla gənclərimizin bu istiqamətdə təhsil almalarını təmin etdi: "Ulu Öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra pərakəndə hərbi dəstələrin əvəzinə, vahid komandanlıqdan idarə olunan nizami ordu formalaşdırıldı. Ulu Öndərin ordu quruculuğu sahəsindəki siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətlərin Masallı rayon şöbəsinin leytenantı Babək Hacıyev Silahlı Qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində düşməni hər an məhv etməyə qadir olan güclü ordumuzun formalaşdığını bildirib" "Azərbaycan Ordusu torpaqlarımızın və xalqımızın müdafiəsində əzmlə dayanıb və işğal altındakı torpaqlarımızı Ali Baş Komandanın əmri ilə qısa vaxtda azad etməyə hazırdır".

Tədbirdə çıxış edən Rəmzi Şahverdiyev, Əziz Əliyev,Əhməd Xancanov və başqaları bildiriblər ki, Prezidentin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Hərbi Məkrəbi, Azərbaycan Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıb. Eyni zamanda, Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir, ordumuz inkişaf və təkmilləşmə dövrünü yaşayır.

**R.RƏSULOV**

# AMEA-da görkəmli türkmən şairi Məhtimqulu Fəraqiyə həsr olunmuş beynəlxalq konfrans keçirilib



Dünən AMEA-nın Mərkəzi-Elmi Kitabxanasında görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin həyat və yaradıcılığına həsr olunan "Məhtimqulu - insan qəlbinin mənəvi təbibi" adlı beynəlxalq elmi konfrans keçirilib. Tədbir iştirakçıları əvvəlcə son zamanlar türkmən dilində nəşr edilmiş kitabların sərgisi ilə tanış olublar.

Konfransı giriş sözü ilə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli açaraq, Azərbaycan-Türkmənistan ədəbi əlaqələrinin müasir inkişafının yüksək səviyyədə olduğunu bildirib: "Eyni kökə, mədəniyyətə, qədim tarixi münasibətlərə və ənənələrə malik Azərbaycan və türkmən xalqlarını eyni dil və din birləşdirir. Müasir dövrdə əlaqələrimizin təməli Ümummilli Lider Heydər Əliyev və Özbəkistanın sabiq Prezidenti İslam Kərimov tərəfindən qoyulub. Bu əlaqələr hazırda Prezident İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyayev tərəfindən uğurla davam etdirilir. Azərbaycan və Özbəkistan inamla irəliyə doğru addımlayır".



Türkmən ədəbiyyatının klassiki M.Fəraqinin zəngin yaradıcılığı barədə məlumat verən akademik İ.Həbibbəyli böyük mütəfəkkirin qiymətli irsinin öyrənilməsinin, tədqiqi və nəşrinin ölkələrimiz arasında ədəbi-mədəni əlaqələrin inkişafında böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Akademik İ.Həbibbəyli yaxın günlərdə Bakıda türkdilli ölkələrin elmlər akademiyalarının nümayəndələrinin iştirakı ilə beynəlxalq forumun keçiriləcəyini də diqqətə çatdırıb.

Tədbirdə Türkmənistanın ölkəmizdəki səfiri Mekan İşankuliyev çıxış edərək, xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərindən söz açıb, tədbirin iki ölkə arasındakı ədəbi əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Tədbirdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva rəhbərlik etdiyi təşkilatın əsas missiyasının türkdilli xalqların tarixinin, zəngin mədəni irsinin öyrənilməsi və dünyaya nümayiş etdirilməsi olduğunu bildirib.

Tədbirdə çıxış edən Tatarıstan Elmlər Akademiyasının prezidenti, akademik Salaxov Myakzyum, Türkmənistan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun direktoru, filologiya elmləri namizədi Davut Orazsəhedov və başqaları ortaq köklərə və zəngin ənənələrə malik olan qardaş türkmən xalqının qüdrətli şairi M.Fəraqini türk-müsəlman dünyasının və ümumən bəşəriyyətin yetişdirdiyi görkəmli sənətkar kimi səciyyələndiriblər.

Konfrans çərçivəsində, həmçinin, "Anaya səcdə - müqəddəslər qarşısında baş əyməkdir", "Görkəmli türkmən şairi Məhtimqulu Fəraqinin yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında" və "Böyük türkmən şairi M.Fəraqi ədəbi irsinin Azərbaycanda nəşri və tədqiqi" kitablarının təqdimatı keçirilib.

**ZÜMRÜD**

# Gəncədə YAP fəalları arasında peyntbol yarışı keçirilib



Gəncədə şəhər icra hakimiyyətinin dəstəyi ilə Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş peyntbol yarışı keçirib. Yarışda YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin fəal gənclərindən ibarət 6 komanda iştirak edib. Finala vəsiqə qazanan 3 komanda böyük həvəslə birincilik uğrunda mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində keçən yarışın finalında Azərbaycan Dövlət Aqrar Universitetinin komandası rəqib komandadan güclü olduğunu nümayiş etdirib. Gəncə Regional Kollecinin tələbələri yarışı ikinci, YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin fəallarından ibarət komanda isə üçüncü pillədə başa vurub.

Komandaların mükafatlandırılması mərasimində çıxış edən YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin sədri Yüksəl Məmmədov peyntbol hərbi-idman oyununun gənclərin fiziki sağlamlığını qorumaq, hərbi-vətənpərvərlik ruhunu gücləndirmək, silahdan atış vərdişlərini təkmilləşdirmək, asudə vaxtın səmərəli təşkilinə nail olmaq və bu növdə ən güclü idmançıları müəyyənləşdirmək məqsədilə keçirildiyini bildirib.

Sonda yarışın mükafatçıları Fəxri Fərmanla təltif ediliblər.

**Rövşən NURƏDDİNOĞLU**

# Erkən nikah ciddi fəsadlar yaradır

***Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin sağlam, bilikli, vətənpərvərlik ruhunda böyüməsi üçün müvafiq qanunvericilik bazası yaradılıb, Prezident fərman və sərəncamları verilib. Gənclər siyasətinin əsas istiqamətləri “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir və həyata keçirilir. Qanuna əsasən Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı, gənclərin məşğulluğunun təmin edilməsi, gənc ailələrə dövlət yardımı, gənclər təşkilatlarına dövlət yardımı və digər bu kimi müddəalar Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmağa imkan verir. Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi ilk islahatlardan biri də gənclərlə bağlı dövlət siyasətinin müəyyənləşdirilərək həyata keçirilməsi olmuşdur. Bu baxımdan, demək olar ki, ölkəmizdə dövlət-gənclər siyasətinin formalaşdırılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.***



“Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 26 iyul tarixli Fərmanı, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu və gənclər siyasəti sahəsində digər normativ-hüquqi aktlar, habelə, Azərbaycan gənclərinin forumlarının keçirilməsi gənclərlə iş sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir. Gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə Ümummilli Lider Heydər Əliyev tərəfindən hələ 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsü irəli sürülüb və 2 fevral 1996-cı ildə Onun təşəbbüsü ilə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib.

1997-ci il fevralın 1-də forumun ildönümü münasibəti ilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev 2 Fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında Sərəncam imzalayıb. Həmin vaxtdan, etibarən ənənəvi olaraq, hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Bu gün Ulu Öndərin əsasını qoyduğu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. “Bugünkü gənc sabah ölkəmizi idarə edəcəkdir” deyən Prezident İlham Əliyev gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi və dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirib.

Çox təəssüflər olsun ki, gəncliyə bu qədər diqqət və qayğı göstərildiyi halda bəzən ciddi problemlərlə qarşılamalı oluruq. Xüsusi ilə də, müxtəlif regionlarda yaranan erkən nikah problemi. Demək olar ki, artıq bu məsələ ictimai bəlaya çevrilib. Düzdür, digər ölkələrlə müqayisədə Azərbaycanda erkən nikah halları azlıq təşkil edir. Bununla belə bu problemin ölkəmizdə əvvəlki illərlə müqayisədə bir qədər artması cəmiyyəti düşündürməyə bilməz. Bu baxımdan qabaqlayıcı tədbirlərin görülməsinə zərurət var. Qanuna görə, Azərbaycanda nikah yaşı 18-dir. Lakin istisna hallarda nikah yaşının 1 ildən çox olmayaraq, azaldılmasına icazə verilə bilər və tərəflər 17 yaşında nikaha daxil ola bilərlər. 15 yaşlı qızın ailə qurması və ana olması qanunvericiliklə ziddiyyət təşkil edir. Buna baxmayaraq, ölkədə azyaşlı anaların sayı durmadan artır. Bu halların qarşısını almaq üçün iki istiqamətdə iş aparılmalıdır. Birinci, erkən nikahla bağlı aparılan işlərin gücləndirilməsi, ikinci isə assosial ailələrlə sosial iş aparılması çox vacib şərtdir. Erkən nikah halları bütün regionlar üçün xarakterikdir. Hansısa rayonu və ya bölgəni bu ağrılı məsələdə əsas sahə kimi qeyd etmək düzgün sayılmaz. Bunu regionlar üzrə aparılan araşdırmalalar və stastik nəticələr də təsdiqləyir. Belə ki, 2017-cı il də Şimal bölgəsi üzrə 14, Aran və Gəncəbasar zonası üzrə 17 faiz təşkil edirdisə, bu göstərici Cənub bölgəsində 12 faiz olub. Halbuki bəzi yazarlar erkən nikah hallarına daha cox Cənub bölgəsində rast gəlindiyini yazırlar. Bu baxımdan, demək olar ki, erkən nikah ümumi cəmiyyət üçün yerindən və əhatə dairəsindən asılı olmayaraq, rast gəlinən problemlərdəndir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq hüquqları şöbəsinin aparıcı məsləhətçisi Fərid Ədilovun sözlərinə görə, erkən nikah qanunla müəyyən edilən yaşdan aşağı nikaha daxil olmaqdır: “Ailə Məcəlləsində də qeyd olunduğu kimi, 18 yaşdan aşağı nikah erkən nikah və ya uşaq evliliyi sayılır. Erkən nikahlar, ilk öncə, uşaq hüquqlarının birbaşa pozulmasıdır: “Ölkəmiz 1992-ci ildə Uşaq Hüquqları Konvensiyasına qoşulub, 1998-ci ildə isə “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edilib. Erkən nikah həm uşağın hüququnun, həm də ölkənin qanunlarının pozulmasıdır. Qızların erkən yaşda ərə getmələri gələcəkdə onlara bir sıra problemlər yaradır. Bu, ilk öncə, qızların təhsildən yayınma halları ilə bağlıdır. İkinci tərəfdən, bu, sağlamlıq məsələləri ilə əlaqəlidir. Erkən nikah quran qız, nəinki özünün, gələcəkdə uşaqlarının da sağlamlığını təhlükəyə atır. Ona görə də, mühüm tədbirlər görülməlidir ki, erkən nikaha yol verilməsin”.



Ailə Məcəlləsi 18 yaşına çatmayan şəxsləri uşaq hesab edir. Bu, həmçinin, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda da öz əksini tapıb. Yəqin biz hansısa toy şənliyində 16-17 yaşlı bəy və ya gəlinə hələ uşaq olduğunu xatırlatsaq, nəinki onların, hətta valideynlərinin də ciddi qınağına tuş gələrik. Söz oyunu kimi görsənsə də, məcəllədəki iki maddənin tutuşdurmasından çıxan nəticə ortadadır: Azərbaycanda uşaqların (yetkinlik yaşına çatmayanların) ailə qurmalarına qanun icazə verir. Bu isə, öz növbəsində, tərəfdaş çıxdığımız beynəlxalq qanunvericiliklə ölkə qanunları arasında ciddi ziddiyyətlərin olduğunu üzə çıxarır. Belə ki, qeyd-şərtsiz şəkildə ratifikasiya etdiyimiz “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın 16.2-ci maddəsində “Uşağın nişanlanması və nikahı hüquqi qüvvəyə malik deyil...” müddəası əks olunub. Nikah yaşının aşağılığı, özəlliklə kişi və qadınlar üçün onun fərqli olması zaman-zaman beynəlxalq təşkilatlar insan hüquqları baxımından mənfi qiymətləndiriblər. Erkən nikah qanunvericiliyin müəyyən etdiyi minimal yaş həddini keçmədən qurulan bütün ailələri əhatə edir. Belə ailələrin sayı konkret bilinməsə də, dövlət rəsmilərinin, bu sahə ilə məşğul olan qeyri-hökumət təşkilatlarının dilə gətirdikləri narahatlıqlar sayın hədsiz çox olduğunu yazmağa əsas verir. UNICEF-in Azərbaycanda həddi-büluğa çatmayanlar arasında nikahların sayının artmasından narahatlıq ifadə edən hesabatında bildirilir ki, Azərbaycanda aparılan araşdırmalar bu təbəqədə hər səkkiz nəfərdən birinin on səkkiz yaşına çatmamış evləndiyini və ya ərə getdiyini göstərir. Nikahda iki tərəf - kişi və qadın iştirak etsə də, “erkən nikah” dedikdə, beyinlərdə qız uşaqlarının yetkinlik yaşına çatmamış ərə verilməsi canlanır. Bir sözlə, yuxarıda da qeyd etdiyim kimi, bu ağrılı məsələ bu gün köklü həllini labüd edir. Ən azı, sağlam həyat, gözəl gələcəyimiz naminə. Tam əminliklə demək olar ki, bu gün Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilib. Ölkə gəncləri demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, elm və digər sahələrdə parlaq nailiyyətlər qazanır, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli islahatların reallaşdırılmasında yaxından iştirak edirlər. Amma razılaşmaq lazımdır ki, bəzən gənclər düşünmədən, əksər hallarda isə valideynləri ilə məsləhətləşmədən addımlar atırlar ki, bu da sonda onların, ümumilikdə isə, cəmiyyət üçün problemlərin yaranmasına gətirib çıxarır. Bugünkü reallıqlara və üzə çıxan faktlara əsasən, demək olar ki, erkən nikaha daxil olmaq cəmiyyətimiz üçün həlli çətin görünən problemlərdəndir. Məlum faktdır ki, erkən nikaha daxil olub, onun acı nəticələrlə yaşayanlar az deyil. Bu cür evliliklərin sonu nadir halda xoşbəxtliklə bitsə də, çox vaxt tərəflərin boşanması ilə nəticələnir.

Dində də qızların erkən yaşda ərə verilməsi birmənalı qarşılanmır. Mövcud dini qaydalara görə qız nikaha daxil olanadək təhsil almalı, ailə həyatına həm fiziki, həm də mənəvi cəhətdən hazır olmalıdır. Azərbaycanda 15-17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı 15,4 faiz artıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2013-cü ildə Azərbaycanda 15-17 yaşlı analar tərəfindən 2 855, 2014-cü ildə isə 3296 uşaq dünyaya gəlib. Əvvəlki illərdə olduğu kimi, ötən il də bu yaşda dünyaya gələn uşaqların çoxu kənd yerlərinin payına düşüb. 2014-cü ildə 1054 uşaq şəhər, 2242 uşaq isə kənd yerlərində doğulub. Keçirdiyi mətbuat konfranslarının birində TQDK sədri Məleykə Abbaszadə qızların tez ailə qurmaları ilə ali təhsil alan qızların sayında azalmalara səbəb olduğunu bildirib: “Cənub rayonlarında ali məktəblərə sənəd verən abituriyentlərin cəmi 10 faizini qızlar təşkil edir. Yardımlı rayonunda ötən il 479 abituriyent sənəd verib, onların yalnız 45-i qız olub. Lerikdə isə 469 abituriyentdən 81-i qızlardır”.

Bir sözlə, ictimai bəlaya çevrilən erkən nikaha qarşı mübarizə tədbirləri yalnız dövlətin yardımları hesabına aradan qaldırmaq mümkün deyil. Bu problemin həllinə nail olmaq üçün hər kəs üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Sosial şəbəkələrin və KİV-in imkanlarından istifadə olunmalıdır. Maarifləndirmə tədbirləri gücləndirməli, hətta riskli ərazilərdə valideynlərlə və onların övladları ilə fərdi söhbətlər və müzakirələr aparılmalıdır.

***Rəfiqə Hüseynova***

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və 22 iyul - Azərbaycan Milli Mətbuatının yaranmasının 143-cü ildönümü ilə əlaqədar keçirdiyi fərdi jurnalist yazı müsabiqəsi üçün***

TƏRS BAXIŞ

# Əli Kərimli sübut etdi...

*Əbülfəz Elçibəyə nifrətini!*



**_Mərhum prezident Əbülfəz Elçibəyin 80 illik yubileyinin keçirilməsi ərəfəsində və sonra ənənəvi dağıdıcı müxalifət daxilində kəskin qarşıdurma yaşanıb. Məsələ ondadır ki, AXCP sədri Əli Kərimli Elçibəyin yubileyinin keçirilməsi üçün yaradılan nə təşkilat komitəsində, nə də tədbirlərdə iştirak etməyir. Bu amil isə, bir daha sübut etdi ki, hələ sağlığı dövründə liderinə qarşı ən alçaldıcı fikirləri mediada yayımladan Ə.Kərimli, hətta onun ölümündən sonra belə, bu nifrətini saxlamaqda davam edir._**

## Əvəz Zeynallı: "Təsəvvür edin ki, Əli Kərimli və onun partiyasına israrla hər həftə dəvət göndərmişik"

Bu arada Elçibəyin yubileyi ilə bağlı yaradılan təşkilat komitəsinin üzvlərindən biri olan Əvəz Zeynallı mətbuata açıqlamasında dəfələrlə Ə.Kərimliyə dəvət göndərdiklərini bildirib: "Elçibəy-80" təşkilat komitəsi bu il fevralın 4-də yaradıldı. O komitəyə nə vaxt qatıldığımın bu məsələyə dəxli olmasa da, onu deyə bilərəm ki, həmin komitənin qatıldığım bütün iclaslarında birtərəfli iclas keçirmişik. Ə.Kərimlinin adı olub, onu və AXCP-ni israrla orada görmək istəmişik. Hər iclasda müzakirə olub. Ə.Kərimlinin partiyasına xüsusi dəvətnamələr göndərilib, bu dəvətnamələr onun köməkçisinə verilib. Xahiş etmişik ki, onların fikirlərini alaq və bu istiqamətdə hərəkət edək. Təsəvvür edin ki, Ə.Kərimli və onun partiyasına israrla hər həftə dəvət göndərmişik. Amma çox təəssüflər olsun ki, nə onun özü, nə də tərəfdarlarından, hətta "Milli Şura"dan kimsə iştirak etmədi. Çox hörmətli "Milli Şura" sədri C.Həsənliyə belə dəvət göndərmişik. Onların nə üçün belə davranmalarının səbəblərinin nə olduğu barədə nəsə deyə bilmərəm..."

Beləliklə, ortaya çıxan maraqlı faktlardan biri də budur ki, zaman-zaman mitinqlərində Elçibəy adı altında "bəlağətli nitqlər" söyləyən insanlar belə, xüsusilə, "Milli Şura"nın sədri C.Həsənli, bilavasitə Ə.Kərimlinin "Fatı qalx, Fatı otur" komandası ilə hərəkət edir. Həsənli, məhz bu səbəbdən, müxtəlif bəhanələr gətirib, Elçibəyin yubileyinə qatılmayanlar arasında yer alıb.

## İttihamın davamı: "Missiya sahibi olanlar öz eqolarını göstərməklə məşğul oldular"

Lakin ittihamlar davam edir. Misal üçün, Ə.Zeynallı öz açıqlamasında bildirib ki,

Ə.Kərimlinin nə səbəbə gəlmədiyi onun özündən soruşulsa, daha maraqlı olar: "Onun nə üçün gəlməməsi barədə hər cür iddia var. Müsavatçıların iddiası var idi ki, niyə Qubad İbadoğlu oradadır? Eləcə də, Qubad bəyin tərəfdarları deyirdilər ki, niyə orada müsavatçılar var. Ə.Kərimli deyir ki, niyə Qüdrət Həsənquliyev oradadır? Eləcə də, əks tərəf Ə.Kərimlinin orada olmamasını deyirdi... Çox təəssüflər olsun ki, missiya sahibi olanlar öz eqolarını göstərməklə məşğul oldular. Belə gedişlə bu bayrağı çox irəli aparmaq olmaz..."

Baş verən olayı incələdikcə, digər məsələlər də ortaya çıxmaqdadır. Məsələn, Ə.Kərimlinin Elçibəyin yubiley törəninə qatılmaması, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, bu "insan", həqiqətən də, psixi xəstəliyə sahibdir, çünki ən azından, iddia olunduğu qədər mərhum liderinin adından belə çəkinir. Əgər nəzərə alsaq ki, Elçibəyin ölümündə onun əlinin olması barədə faktlar var, bu zaman Kərimlinin yubileyə qatılmamasının pərdəarxası məqamlarını daha aşkar şəkildə görə bilərik.

**_Rövşən RƏSULOV_**

# Erməni hərbçilərin valideynləri Manvel Qriqoryanı lənətləyirlər

*"O, bu qidalarla öz ayılarını yemləyib, bizim övladlarımız isə boş mədələri ilə ac qalıblar"*



**_Aprel müharibəsi dövründə Ermənistan ordusunun xaotik vəziyyətdə olması və əsgərlərin necə ağır şəraitdə hərbi xidmət aparmaları barədə faktlar üzə çıxmaqda davam edir. Sputnik Armeniya agentliyinin yazdığına görə, məhkəmə-tibbi ekspertizası serjant Robert Abramyanın ölümü barədə növbəti faktı ortaya çıxarıb. Belə ki, 2016-cı ilin aprelində baş vermiş hərbi əməliyyatlar zamanı erməni serjantı 3 gün idi ki, ac qalıb və qidalanmayıb. Bunu Robert Abramyanın atası Abram Abramyan da təsdiq edib._**

## Abram Abramyan: "İndi onun kimiləri yaşayır, övladlarımız isə yoxdurlar"

Artıq həbs olunmuş general Manvel Qriqoryanın şəhər ətrafındakı villasından çıxan əsgər qidaları ilə bağlı məlumatlardan da görünür ki, o, cəbhə xəttində xidmətdə olan hərbçilərin qidalarını saxladığı heyvanlara yem olaraq verib. A.Abramyan bu barədə "Azadlıq Radiosu"nun erməni bürosuna ("Azatutyun"-red.) danışıb. SİTAT: "O, bu qidalarla öz ayılarını yemləyib, bizim övladlarımız isə boş mədələri ilə ac qalıblar. Uşağımın 3 gün ac qalması mənə elə ağır gəlir ki... Mən bu faktı təsdiq edən bütün kağızları göstərə bilərəm. Heç olmasa ac qalmazdı və aclığa qarşı mübarizə aparardı, indi də yanımda olardı. İndi onun kimiləri (M.Qriqoryan-red.) yaşayır, övladlarımız isə yoxdurlar".

Abramyanın sözlərinə görə, ordudakı oğurluqlar, talanlar barədə hələ 2016-cı ilin aprelindən məlumatlıdırlar və əgər o, Ararat vilayətinin Taperakan kəndində yaşaya-yaşaya bunu bilirdisə, demək, bu barədə yüksək vəzifəli məmurlar da xəbərdar olublar. "İnsanlar var idi ki, şəxsən mənə əsgərlərə yardım apardıqlarını deyirdilər, M.Qriqoryan isə həmin yardımları öz anbarına yığılmasını əmr edirdi.

## Öldürülmüş kapitanın dul arvadı: "O, "qəhrəman" adından məhrum olunmalıdır"

Aprel müharibəsi dövründə həlak olmuş kapitan Ovsep Kirokosyanın Eçmiədzinin Apaqa kəndində yaşayan ailəsi isə bildirib ki, bir neçə km aralıda M.Qriqoryanın heyvanlarına onlardan daha çox diqqət göstərildiyini bildikdən sonra, bu olay həmin ailəyə çox pis təsir edib.

Generalın evindən çıxmış "Əsgər payı" konservləri hüquq- mühafizə orqanlarının da, bəyan etdiyi kimi, hərbçilərə çatdırılmayıb. Bu da hərbçi anasına ağır təsir edib. "Əgər 3-cü sinif şagirdi məktub yazaraq, əsgərə müraciət edirsə, ordunu necə talan etmək olar? Bu uşaqlar nəyə görə öldülər?"-deyə sual olunur.

Qeyd olunur ki, kapitanın dul arvadı Məryəm işləyir və onun yeganə məqsədi övladlarını mənzillə təmin etməkdir. Onun bir tələbi var: "O, (M.Qriqoryan-red.) "qəhrəman" adından məhrum olunmalıdır. "Onlar qəhrəman ola bilməzlər. Talançıdan qəhrəman çıxmaz"-deyə O.Kirokosyanın dul arvadı bildirib.

Eləcə də, Ararat vilayətinin Vedi şəhərindən olan Andranik Zoqrabyan kapitan Armenak Urfanyanla bir yerdə aprel müharibəsində öldürülüb. Andranikin atası Atom Zoqrabyanın sözlərinə görə, son hadisələrdən sonra bəlli olub ki, onların övladlarının yaşamaq mümkünlüyü üçün lazım olan hər şey oğurlanıb. "Baş verənlər həm mənim üçün, həm də digərləri üçün bir gerçəkliyi ifadə edir, bu, xəyanətdir"- deyə A.Zoqrabyan bildirib.

**_Rövşən NURƏDDİNOĞLU_**

# Hadisə yerindən yayınmaqda şübhəli bilinən sürücü saxlanılıb



**_Ucar rayon sakini Emil Həsənlinin Nərimanov rayonu ərazisində avtomobillə vurulması nəticəsində aldığı xəsarətlərlə xəstəxanaya yerləşdirilməsi barədə daxil olmuş məlumatla əlaqədar 17-ci polis şöbəsinin əməkdaşları tərəfindən dərhal müvafiq tədbirlər həyata keçirilib._**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, araşdırmalarla piyadanın saat 13 radələrində Z.Bünyadov prospektində yolu keçərkən müəyyən edilməmiş avtomobillə vurulduğu məlum olub.

Həkimlərin səyinə baxmayaraq, yaralının həyatını xilas etmək mümkün olmayıb.

DİN-in "Təhlükəsiz Şəhər" Xidməti və 17-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində yol-nəqliyyat hadisəsinin "KİA" markalı avtomobillə törədilməsi müəyyən edilib. Yol qəzasını törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən həmin nəqliyyat vasitəsini idarə edən Kürdəmir rayon sakini Orxan Hüseynov polis əməkdaşları tərəfindən saxlanılıb. Faktla bağlı Nərimanov Rayon Polis İdarəsində araşdırma aparılır.

# 5 tona yaxın çətənə kolları məhv edilib



**_Daxili işlər orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkar edilməsi istiqamətində tədbirlər qətiyyətlə davam etdirilir. DİN-dən SİA-ya verilən məlumata görə, iyunun 23-24-də bu istiqamətdə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində çəkisi 8,7 kiloqrama yaxın narkotik vasitə və xeyli sayda çətənə kolları polis əməkdaşları tərəfindən aşkar edilərək götürülüb, həmçinin yabanı halda bitmiş, çəkisi 5 tona yaxın 10 min ədədə qədər çətənə kolları məhv edilib._**

Belə ki, DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Şəmkir rayonunun Yeni Həyat kənd sakini Qabil Məmmədovun həyətyanı sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 57 ədəd çətənə kolu, evindən isə 5 kiloqram 520 qram marixuana və 67 ədəd çətənə toxumu, Lənkəran Şəhər-Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində isə Səpnəkəran kənd sakini Xanlar Mehdiyevə məxsus torpaq sahəsindən kultivasiya yolu ilə yetişdirilmiş 29 ədəd çətənə kolu və çəkisi 2 kiloqram 715 qram olan marixuana götürülüb.

Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılan şəhər sakini, əvvəllər məhkum olunmuş Məhərrəm Rzayevdən 460 qram marixuana aşkar edilib.

Oğuz Rayon Polis Şöbəsinin əməkdaşları Bayan kəndi ərazisində çəkisi 2 ton 900 kiloqram olan 8400 ədəd, Ağdaş Rayon Polis Şöbəsinin əməkdaşları isə Malay kəndi ərazisində çəkisi 450 kiloqram olan 1200 ədəd yabanı halda bitmiş çətənə kollarını yandırılma yolu ilə məhv ediblər. Bu istiqamətdə tədbirlər davam etdirilir.

# Uşaq Hüquqları Komitəsinin fəaliyyət istiqamətləri və YUNESKO

***Uşaq Hüquqları Komitəsinin mühüm fəaliyyət istiqamətlərindən biri də qəbul etdiyi qeyd-şərtlərdir. Məsələn, 2002-ci ildə qəbul edilmiş "İnsan hüquqlarının müdafiəsi və inkişafında milli hüquq- müdafiə təsisatlarının rolu" adlı 2 saylı ümumi qeyd-şərt, 2003-cü ildə qəbul edilmiş "QİCS və uşaqların hüquqları" adlı 3 saylı ümumi qeyd-şərt; 2003-cü ildə qəbul edilmiş "Yeniyetmələrin Uşaq Hüquqları haqqında Konvensiya kontekstində sağlamlığı və inkişafı" adlı 4 saylı ümumi qeyd-şərt və s.***

Qəbul edilən qeyd-şərtlər ümumi insan hüquqları sahəsində qəbul edilmiş mühüm sənədlərə əsaslanır. Məsələn, 2002-ci il tarixli 2 saylı ümumi qeyd-şərt Paris prinsipləri adlanan 20 dekabr 1993-cü ildə BMT Baş Məclisi tərəfindən qəbul edilmiş "İnsan hüquqlarının müdafiəsi və tətbiqi ilə məşğul olan milli təsisatların statusuna dair prinsiplər" adlı beynəlxalq sənədlə müəyyən edilir. Belə ki, həmin sənədin 3-cü bəndində milli təsisatların funksiyalarından biri kimi konkret məsələlər, o cümlədən, bütövlükdə insan hüquqları sahəsində hesabatların təqdim edilməsi göstərilir. Eyni zamanda, həmin milli təsisatların BMT və onun komitələri ilə əməkdaşlığı və s. məsələlər geniş şəkildə əks olunmuşdur.

N.Adilov göstərir ki, komitənin sessiya iclaslarının birində Konvensiyanın hər hansı bir müddəasının və ya məsələnin daha dərindən başa düşülməsi məqsədilə ümumi müzakirələrin keçirilməsi nəzərdə tutula bilər. Komitə tərəfindən bu istiqamətdə bir sıra müzakirələr keçirilmişdir. Məsələn, 20 yanvar 1993-cü ildə "Uşaqlar və hərbi konfliktlər", 4 oktyabr 1993-cü ildə "Uşaqların iqtisadi istismarı", 10 oktyabr 1994-cü ildə "Uşaqların hüquqlarının həyata keçirilməsində ailənin rolu". 23 yanvar 1995-ci ildə "Qızların vəziyyəti", 9 oktyabr 1995-ci ildə "Yetkinlik yaşına çatmayanlara münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsi", 7 oktyabr 1997-ci ildə "Uşaqlar və kütləvi informasiya vasitələri" və s.

1993-cü ilin yanvar ayında komitə öyrənilmə üçün ehtiyacı olan müxtəlif məsələlərə baxmış, ümumi məlumat da daxil olmaqla, məsələlərin qeyri-rəsmi siyahısını işləyib-hazırlamışdır:

- Uşaqların maraqlarının daha yaxşı təmin edilməsi;
- Uşağın iştirakı;
- Uşaq hüquqlarının transmilli aspektləri;
- Uşaqların fiziki toxunulmazlığı;
- Uşaqlar və siyasi azadlıqlar;
- Ailə əhatəsi və alternativ qulluq;
- Uşaq-qaçqınlar;
- Uşaq əməyi;
- Uşaqlar və son ehtiyac;
- Milli azlıqlara məxsus uşaqlar;
- Qayıtma və reinteqrasiya;
- Konvensiyaya qeyd-şərtlərin hüquqi təhlili.

Uşaq Hüquqları Konvensiyasının iştirakçısı kimi AR də Uşaq Hüquqları Komitəsinə dövri hesabatlar təqdim edir. AR tərəfindən axırıncı dövri hesabat Uşaq Hüquqları Komitəsinin toplantılarında qiymətləndirilmiş və 27 yanvar 2006-cı il tarixdə keçirilmiş 1120-ci yığıncağında bir sıra yekun nəticələr əldə edilmişdir. Komitə AR tərəfindən qəbul edilmiş bır sıra dövlətdaxili normativ-hüquqi aktları (22 iyul 2000-ci il tarixli "Uşaq hüquqlarının qorunması və uşaqların təhsil və təliminin inkişaf etdirilməsi üzrə Dövlət Proqramı"nı, 21 oktyabr 2005-ci il tarixli "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanununun qəbul edilməsini, AR-in bir sıra beynəlxalq sənədlərə qoşulması (Uşaq Hüquqları Konvensiyasının uşaqların silahlı münaqişələrə cəlb edilməsi, satılması və uşaq fahişəliyinə və pornoqrafiyasına cəlb edilməsi haqqında 2-ci Fakültətiv Protokolu, Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında 1990-cı il tarixli Beynəlxalq Konvensiyanı, Uşaq əməyinin ən pis formalarının aradan qaldırılması və qadağan edilməsi üçün isə ciddi tədbirlərin keçirilməsini nəzərdə tutan 182 saylı BMT Konvensiyasını, 1993-cü il tarixli dövlətlərarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında Konvensiyanı və s.)) müsbət addım kimi qiymətləndirmişdir.

Bununla əlaqədar Uşaq Hüquqları Komitəsi AR-in ilk hesabatında bildirilən yekun nəticələrdə göstərilən və hal-hazırda həyata keçirilməyən tövsiyələrə əməl etmək üçün və ikinci hesabatda cari müşahidələrə əsaslanan narahatçılıq doğuran məsələlərə effektiv şəkildə reaksiya vermək üçün ölçülər götürməyə dəvət edir. Eyni zamanda, komitə təəssüflə bildirmişdir ki, Uşaq Hüquqları Konvensiyasının müddəalarına və prinsiplərə əməl etmək məqsədilə götürülmüş hüquqi ölçülər onların tam şəkildə tətbiq olunması üçün adekvat mexanizmlə və maliyyə dəstəyi ilə təmin olunmamışdır. Daha sonra, Uşaq Hüquqları Komitəsi tövsiyə edir ki, AR öz qanunvericiliyini Konvensiyanın müddəalarına və prinsiplərinə uyğunlaşdırılması prosesini davam etdirsin və bu qanunvericiliyin effektiv şəkildə tətbiq olunması üçün lazım olan bütün dəstəyi, o cümlədən budcə resurslarını və monitorinq mexanizmini təmin etsin.

Uşaq Hüquqları Komitəsi Uşaq Hüquqları Konvensiyasının Azərbaycan dilinə tərcümə edilərək geniş yayılmasını alqışlamaqla bərabər, AR Konvensiyanı daha geniş yaymağı, onun zəif qruplara, yəni etnik və başqa dildə danışan azlıqlara yayılmasına diqqət yetirməyi, uşaq hüquqları ilə maşğul olan professional qruplara, o cümlədən, uşaqlarla, uşaqlar üçün çalışan KİV nümayəndələrinə lazımi və sistemli treninqlərin keçirilməsi təşəbbüsünü davam etdirməyi tövsiyə etmişdir.

Komitənin AR-in qanunvericiliyi və praktiki fəaliyyəti haqqında tövsiyələri də müxtəlif sahələri əhatə edir.

Səmərəli nəzarəti təmin etmək üçün Uşaq Hüquqları Komitəsinin ekspertlərinin sayının artırılması ilə bağlı təkliflər də irəli sürülür. Məsələn, Kosta-Rika hökuməti ekspertlərin sayının 18-ə qaldırlması təklifi ilə çıxış etmiş və bu 12 dekabr 1995-ci ildə iştirakçı dövlətlərin konfransında konsensus yolu ilə qəbul edilərək, BMT Baş Məclisi tərəfindən bəyənilmişdir.

Hal-hazırda Uşaq Hüquqları Komitəsi ilə yanaşı, bir sıra digər Konvensiya mexanizmləri (Məsələn, İşgəncələr Əleyhinə Komitə, İnsan Hüquqları Komitəsi və s.) fəaliyyət göstərir. Ayrı-ayrı komitələrin hesabatları, ayrılıqda qəbul etməsinə baxmayaraq, onlar arasında daimi əlaqələrin qurulması və vahid mövqedən çıxış etmə (bu zaman İnsan Hüquqları Şurası mühüm yer tuta bilər) daha səmərəli nəticələr verə bilər.

Qloballaşma insan hüquqlarının tarixi baxımından universallaşması ilə əlaqədardır və beynəlxalq təşkilatlar şəbəkəsinin yaradılmasına xidmət edir ki, bu da qlobal mülki cəmiyyətin formalaşmasını müəyyən edir. Beynəlxalq təşkilatlar içərisində BMT-nin ixtisaslaşdırılmış təsisatları özlərinin spesifik xüsusiyyəti ilə fərqlənir.

Bütövlükdə, BMT-nin ixtısaslaşmış qurumları xüsusi sahələrdə əməkdaşlığı həyata keçirir, BMT ilə İqtisadi və Sosial Şura vasitəsilə fəaliyyət göstərən universal xarakterli dövlətlərarası təşkilatlardır". Y.Şibayeva göstərir ki, beynəlxalq iqtisadi münasibətlərin inkişafı prosesində müəyyən sahələr üzrə dövlətlərarası əməkdaşlıq və əlaqələndirmə zərurəti ortaya çıxmışdır. Bu tələb beynəlxalq iqtisadi münasibətlərin hüquqi tənzimlənməsi üçün ikitərəfli müqavilələr əsasında beynəlxalq inzibati ittifaqlar yaradılmasını reallaşdırmışdır. H.M.Rəcəbli göstərir ki, bu zaman, BMT-nin ixtısaslaşmış qurumlarından bəzilərinin BMT-dən əvvəl inzibati təşkilatlar kimi fəaliyyət göstərməsi faktı da xüsusi qeyd edilməlidir. Belə ki, Beynəlxalq Əmək Təşkilatı Versal Müqaviləsinin XIII hissəsinə əsasən, hələ 1919-cu ildə yaradılmışdır. Dövlətləri, sahibkarları, habelə, əməkçiləri bərabər hüquqlar zəminində öz tərkibində birləşdirir; iş vaxtı, əmək haqqının ödənilməsi, əməyin mühafizəsi və s. kimi məsələlərə aid qanunların yaradılması sahəsində fəaliyyət göstərir. Beynəlxalq Telekommunikasiya İttifaqı 1865-ci ildə yaradılmış Beynəlxalq Teleqraf İttifaqının varisidir.

Ümumdünya Poçt İttifaqı 1874-cü ildə Bern Konvensiyasına əsasən yaradılmışdır. İntellektual Mülkiyyətin Ümumdünya Təşkilatının əsası isə, əslində, Paris (1883-cü il) və Bern (1886-cı il) Konvensiyaları ilə qoyulmuşdur.

Göründüyü kimi, BMT-nin bir sıra ixtisaslaşmış qurumları dövlətlərarası inzibati orqan kimi əvvəllər də fəaliyyət göstərmişdir.

BMT Nizamnaməsinin 57-ci maddəsində ixtisaslaşmış qununların əsas səciyyəvi cəhətləri qeyd olunur: belə təşkilatların yaranması haqqında sazişlərin dövlətlərarası mahiyyət daşıması; onların öz təsis aktları çərçivəsində geniş beynəlxalq məsuliyyət daşıması; BMT ilə bağlılığı; müəyyən sahələrdə (iqtisadi, sosial, elmi-texniki, mədəni, humanitar və s.) fəaliyyət göstərməsi, yəni ixtisaslaşması. İxtisaslaşmış qurumların BMT ilə bağlılıq xüsusiyyətlərindən asılı olmayaraq, onların hər biri müstəqildir və beynəlxalq münasibətlər sistemində beynəlxalq hüquq subyektliliyinə malikdir. İxtisaslaşmış qurumların xüsusi formalı beynəlxalq hüquq subyektliliyi onlara dövlətlərlə birbaşa müqavilələr bağlamağa, nümayəndələr qəbul etməyə, habelə, göndərməyə, nümayəndəlik açmağa və s. hüquqlar verir. Beynəlxalq təşkilata aid üç əsas əlamət-Konvensiya bazisi (Konvensiyalı əsas), fəaliyyət xarakterinin daimiliyi, müəyyən orqanlar sisteminin mövcudluğu ixtisaslaşmış qurumlara da xasdır.

Bütövlükdə, insan hüquqları sahəsində nəzarət mexanizmi BMT və onun müvafiq Konvensiyaları əsasında yaradılmış orqanları ilə yanaşı, BMT-nin bir sıra ixtisaslaşmış qurumları çərçivəsində də həyata keçirilir. Belə təsisatların bəzilərində xüsusi əlamətlərə malik geniş beynəlxalq nəzarət sistemi yaradılmışdır. Hazırda BMT strukturunda 17 ixtisaslaşmış təsisat (halbuki bu ixtisaslaşdırılmış təsisatların sayı barədə də ədəbiyyatda fikir müxtəlifliyi mövcuddur) fəaliyyət göstərir ki, bunların da bir neçəsi bu və ya digər dərəcədə və formalarda insan hüquqları məsələləri ilə məşğul olur. Məsələn, Beynəlxalq Əmək Təşkilatı (BƏT), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı (YUNESKO), Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), BMT Uşaq (YUNİSEF) və s.

N.Adilov yazır: "BMT-nin ixtisaslaşmış təsisatlarından olan YUNESKO (Təhsil, elm və mədəniyyət məsələləri üzrə BMT Təşkilatı) 1945-ci ildə London Konfransında təsis olunmuşdur. Nizamnaməsi 4 noyabr 1946-cı ildə qüvvəyə minmişdir. 1946-cı ilin dekabrından BMT-nin ixtisaslaşmış təsisatıdır.

YUNESKO-nun əsas vəzifəsi maarifçilik, elm və mədəniyyət, kütləvi informasiya vasitələrindən istifadə, xalq təhsilinin, elmin və mədəniyyətin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi yolu ilə dünyada sülhün və təhlükəsizliyin bərqərar olmasına nail olmaqdır.

Artıq ötən illər ərzində YUNESKO İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 27-ci maddəsində nəzərdə tutulan -cəmiyyətin mədəni həyatında iştirak etmək hüququnun tətbiqinə istiqamətlənən fəaliyyət həyata keçirmişdir. Belə ki, 1966-cı ildə YUNESKO-nun Baş Konfransı dövlətlərin, hökumətlərin, təşkilatların assosiasiya və qurumların rəhbər tutmalı olduqları "Beynəlxaq mədəni əməkdaşlığın prinsipləri" barədə Bəyannaməni qəbul etmişdir.

Bəyannamədə nəzərdə tutulan prinsiplər aşağıdakılardır: hər bir mədəniyyət hörmət edilməli və qorunmalı olan dəyərlərə malikdir; öz mədəniyyətini inkişaf etdirmək hər bir xalqın hüququ və vəzifəsidir. Xalqlar bəşəriyyətin texniki və mənəvi-intellektual inkişafının harmonik bərabərliyini təmin etmək üçün mədəniyyətin bütün sahələri paralel və bərabər inkişaf etdirməkdə davam etməlidirlər; mədəni əməkdaşlıq elm, təhsil və mədəniyyət sahəsində bütün növ əqli və yaradıcılıq fəaliyyətlərini əhatə etməlidir; mədəni əməkdaşlıq bütün xalqların hüququ və vəzifəsi olduğundan onlar bilik və bacarıqlarını bir-biri ilə bölüşməlidirlər; bütün mədəniyyətlərə müsbət təsir göstərən və onların qarşılıqlı zənginləşdirilməsinə şərait yaradan beynəlxalq mədəni əməkdaşlığın həyata keçirilməsi zamanı bu mədəniyyətlərin hər birinin orijinallığı nəzərə alınmalıdır.

YUNESKO-nun fəaliyyətinin əsas istiqaməti təhsil sahəsində savadsızlıqla mübarizə üzrə proqramların həyata keçirilməsi, savadsızlığın əsas səbəblərini aradan qaldırmağa yönələn belə proqramların elementlərindən biri kimi ümumi icbari-ibtidai təhsil prinsipinin realizə edilməsidir".

Təşkilat, həmçinin, müəllimlərin təminatı, yerlərdə məktəblərin tikintisi və onların lazımi ləvazimatlarla təchiz olunması məqsədilə təhsilin planlaşdırılması və inkişafı üzrə məsul şəxslərin hazırlanması ilə məşğul olur. Bu fəaliyyətin əsasında 1974-cü ildə YUNESKO-nun Baş Konfransı tərəfindən qəbul edilən beynəlxalq qarşılıqlı anlaşma, əməkdaşlıq və sülh ruhunda tərbiyə və insan hüquq və əsas azadlıqlarına hörmət ruhunda tərbiyə barədə tövsiyə durur.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Xəbərdarlıq: Havanın hərarəti 42 dərəcəyədək yüksələcək



Sinoptiklər anomal istilərlə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildirilib ki, iyunun 26-dan ayın sonunadək ölkə ərazisində hava şəraitinin anomal isti olacağı, havanın maksimal hərarətinin 35-40°, Mərkəzi Aran rayonlarının və Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində 42°-dək yüksələcəyi proqnozlaşdırılır. Tibbi-meteoroloji proqnoza görə, iyunun 26-27-də Abşeron yarımadasında günorta saatlarında isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

## Diqqətli olun: Bu maddə xərçəng şişlərini 100 dəfə artırır!



Kaliforniya Universiteti (ABŞ) alimləri araşdırma nəticəsində aşkar ediblər ki, xolesterin insan orqanizmində xərçəng şişlərinin böyüməsinə təsir edir. Araşdırmanın nəticələri Cell Stem Cell jurnalında dərc olunub. Alimlər siçanlar üzərində aparılmış eksperimentlər zamanı aşkar ediblər ki, xolesterinin səviyyəsinin artması bağırsaqda xərçəng şişinin böyüməsini 100 dəfə sürətləndirir.

Alimlərin fikrinə görə, bu kəşf yoğun bağırsaq xərçənginin müalicəsində kömək edəcək. Lakin alimlər qeyd edir ki, xolesterindən tam imtina etmək düzgün deyil. Xolesterin orqanizm üçün həyati vacibdir. Xolesterin D vitamini, hormonların sintezində iştirak edir, hüceyrələrin membranlarına daxildir, həzmə kömək edir.

Alimlər qidalanmada "pis" xolesterinin səviyyəsini azaltmağa, "yaxşı" xolesterinin səviyyəsini isə əksinə artırmağa çağırır. Bunun üçün qidalanmada qırmızı və emal olunmuş ətin (kolbasa, sosis və s.) miqdarını azaltmaq, balıq və dəniz məhsulları, meyvə-tərəvəz, yarmalar, qoz-fındıq, paxlalar, zeytun yağı kimi məhsulların miqdarını artırmaq lazımdır.

## Basketbolçularımız Avropa çempionatının seçmə mərhələsində iştirak edəcəklər

İyunun 30-da Rumıniyada 3x3 basketbol üzrə Avropa çempionatının seçmə mərhələsinə start veriləcək. Amil Həmzəyev, Zaur Paşayev, Anar Hacıyev və Marşall Mozesdən təşkil olan milli komandamız İspaniya və İtaliya basketbolçuları ilə birgə "B" qrupunda yarışacaq.

"A" qrupunda Serbiya, Gürcüstan, Litva, "C" Rumıniya, Bosniya və Herseqovina, İsveç, "D" qrupunda isə Almaniya, Xorvatiya və İrlandiya yığmaları mübarizə aparacaqlar.

Qalib komanda Avropa çempionatının finalına vəsiqə qazanacaq. Rumıniya yarımfinala yüksələrsə, seçmə mərhələdə beşinci olacaq komanda qitə birinciliyinə vəsiqəni təmin edəcək. Çünki Avropa birinciliyinin ev sahibi kimi Rumıniya final mərhələsində öz yerini təmin edib.

## Neymarın hər yıxılmağına görə qonaqlıq verəcəklər

Braziliyanın paytaxtı Rio-de-Jeneyroda fəaliyyət göstərən restoranlardan biri maraqlı aksiyaya hazırlaşır. Qol.az-ın "TASS" agentliyinə istinadən yaydığı xəbərə görə, restoran rəhbərliyi DÇ-2018-in qrup mərhələsinin Serbiya ilə oyununda Neymarın yerə yıxıldığı hər epizoda görə müştərilərinə pulsuz qonaqlıq verəcək. Xatırladaq ki, Neymar Braziliya millisinin dünya çempionatında keçirdiyi oyunlarda tez-tez yerə yıxıldığı üçün azarkeşlər tərəfindən tənqid olunub. 26 yaşlı hücumçu təkcə Kosta-Rika ilə matçda özünü 15 dəfə yerə atıb. Hətta onun bu hərəkətinə görə Fransa millisinin sabiq üzvü Erik Kantona Neymar və komanda yoldaşlarına özlərini kişi kimi aparmağı məsləhət görüb.

Qeyd edək ki, Serbiya - Braziliya oyunu iyunun 27-də keçiriləcək və Bakı vaxtı ilə 22:00-da başlayacaq.

# FIFA Almaniya millisinin iki futbolçusunu cəzalandıracaq?



FIFA Rusiyada keçirilən XXI dünya çempionatının ikinci turunda Almaniya-İsveçlə oyundan sonra baş verən insidentə görə, almanların iki nümayəndəsinə qarşı intizam işi açıb.

AZƏRTAC xəbər verir ki, bunlar yığmanın meneceri Qeorq Bexlau və mətbuat katibi Ulrix Foyqtdur. Adıçəkilən şəxslər Almaniya millisinin son dəqiqədə vurduğu qələbə qolundan sonra İsveçin ehtiyat oyunçular skamyasına tərəf qaçaraq oraya tərəfə yumruq göstərib, əl çalıb və digər qıcıqlandırıcı hərəkətlər edib. Nəticədə tərəflər arasında toqquşma baş verib.

Qeyd edək ki, daha sonra Almaniya Futbol Federasiyası, eləcə də Bexlau və Foyqt bu hərəkətdən sonra öz şəxsi "Twitter" səhifələrində üzr istəyiblər.

# Diyeqo Maradona Xorxe Sampaolini növbəti dəfə tənqid edib



Dünya futbolunun əfsanəsi Diyeqo Maradona Argentina millisinin baş məşqçisi Xorxe Sampaolini növbəti dəfə tənqid edib. Maradona həmyerlilərinin Rusiyada keçirilən dünya çempionatındakı uğursuz çıxışının səbəbkarı kimi baş məşqçini qeyd edib.

"İnsanlar inanırdılar ki, Sampaoli kompüter, dronlar və 14 köməkçisi sayəsində problemi həll edəcək. Argentina nə oynadığını bilmir. Komandada heç bir ideya yoxdur - nə yarımmüdafiədə, nə müdafiədə, nə də hücumda. Xorvatiya ilə görüşdə də biz buna şahid olduq", - deyə Maradona əlavə edib.

Maradona baş verənlərə görə, federasiya rəhbəriyini də günahlandırıb: "Federasiyaya futboldan kənar adamlar rəhbərlik edirlər. Onların heç bir planı yoxdur. Hər şeyi özbaşına buraxıblar. Mən Argentinanın son məşqinə qatılmaq istəyirəm. Futbolçulara başa salım ki, milli komandanın formasını geyinmək nə deməkdir. Messi necə lazım idisə, elə də oynadı. Bir nəfərin bütün komandanın problemini təkbaşına həll etməsi çox çətindir".

Xatırladaq ki, Argentina milli komandası dünya çempionatının "D" qrupunda yer alır. Onlar ilk turda İslandiya yığması ilə heç-heçə (1:1), ikinci turda isə xorvatlara böyük hesabla məğlub olublar (3:0). Argentina iyunun 26-da sonuncu turda Nigeriya yığması ilə üz-üzə gələcək. Görüş Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

# "Neftçi" ilk yoxlama oyununda qalib gəlib



Türkiyənin Topuk yaylası bölgəsində təlim-məşq toplanışının ikinci mərhələsinə başlayan "Neftçi" klubu ilk yoxlama oyununu keçirib. Rəqib Makedoniyanın "Şkupi" klubu olub.

Qarşılaşma flaqmanın 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. Hesabı 62-ci dəqiqədə Namik Ələskərov açıb. Oyunun 86-cı dəqiqəsində Mirabdula Abbasov yekun nəticəni müəyyənləşdirib.

"Şkupi" bu il avrokuboklarda debüt edəcək. "Qarabağ"ın sabiq futbolçusu Zakariya Ramadaninin hazırda baş məşqçi kimi çalışdığı kollektiv Avropa Liqasının birinci təsnifat mərhələsində Şotlandiyanın "Qlazqo Reyncers" klubu ilə üz-üzə gələcək. Türkiyədə təlim-məşq toplanışı çərçivəsində "Neftçi" daha üç yoxlama görüşündə gücünü sınayacaq. İyunun 28-də rəqib Rumıniyanın "Dunarya Kalaraşi", iyulun 5-də isə "Politexnika" klubu olacaq. Daha bir rəqibin adı yaxın günlərdə açıqlanacaq.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500